www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 11-12 iyun 2016-cı il Şənbə № 127 (6448) Qiyməti 60 qəpik

## Xəbər

**Ermənistana keçən qadın Azərbaycana qaytarıldı**

yazısı səh.2-də

## Gündəm

### Prezident yeni kadr islahatlarına başladı




Mehdi Səlimzadə Göyçayın icra başçısı təyin olundu; Mübariz Ağayev nazir müavini postuna gətirildi; ekspertlər bunu kadr dəyişikliyinin yeni mərhələsi kimi qiymətləndirir

yazısı səh.5-də

### Vergi müfəttişlərinin dövlətlə 50 faiz şərikliyinin səbəbi

yazısı səh.3-də

### İran Ermənistana niyə qucaq açdı?

yazısı səh.6-da

*Polad Bülbüloğlu:*

### “Azərbaycan və Ermənistan prezidentlərinin görüşü çox vacibdir”

yazısı səh.8-də

### Osmanlı imperatorluğunu qadınlar idarə edirmiş?

yazısı səh.6-da

### Müxalifət Siyavuş Novruzova mitinqlə yox, sözlə cavab verdi

yazısı səh.7-də

### Kreml Ermənistanın səmasını da nəzarətə aldı

yazısı səh.8-də

### Qara dərilinin ardınca qadın prezident Amerikaya uğur gətirəcəkmi?..

yazısı səh.9-da

### Yay düşərgələri valideynləri niyə soyub soğana çevirmək istəyir - araşdırma

yazısı səh.12-də

### Avropa Çempionatı başladı

yazısı səh.15-də

### Ramazan ayının 5-ci günü

İftar 20.27 İmsaq 03.09-dək (QMI)

5-ci günün duası: “İlahi, məni bu gün tövbə və istiğfar edənlərdən, dostların sayılan saleh bəndələrindən qərar ver! Öz məhəbbət və mərhəmətinlə məni bu gündə Sənə yaxın olan bəndələrindən qərar ver! Ey, mərhəmət edənlərin ən Mərhəmətlisi!”

İftar duası: “Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla”.

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

**Kreml yenidən masa arxasına keçir - əsas gözlənti**

# RUSİYADAN AZƏRBAYCANA QƏFİL QARABAĞ JESTİ - ERMƏNİ TƏŞVİŞDƏ

Moskvanın Azərbaycanı və Ermənistanı öz orbitində saxlamağa yönəlik siyasətində Bakıya verdiyi nisbi önəmin səbəbi; iyun görüşünə Azərbaycan daha uğurlu mövqe ilə gedir; Türkiyə amilinin prosesə pozitiv təsiri qayıdır...

yazısı səh.9-da




# Adı “MTN işi”nə qarışan müğənnidən “Yeni Müsavat”a şok açıqlama

**Şəbnəm Əsədova:** “Famillə aramızda qısqanclıq mövzusunda mübahisə yaranmışdı, həll etdik”; Akif Çovdarovun ortağı Famil Xəlilov kimdir və müğənni ilə arasında mübahisənin gerçək səbəbi nə olub?

yazısı səh.10-da



### Rəsul Quliyevdən mesaj: “Bu, baş verə biləcəklərin startıdır”

yazısı səh.3-də



*Əkrəm Həsənov:*

### “Kreditlərdə heç bir güzəşt olmayacaq”

yazısı səh.4-də



*Fəzail Ağamalı:*

### “Əli İnsanovu məğlublar sırasında görürəm”

yazısı səh.4-də



## Prezident Sumqayıtda təmir-bərpa işlərinə 10 milyon manat ayırdı

**Prezident İlham Əliyev Sumqayıt şəhərində çoxmənzilli binaların dam örtüklərinin dəyişdirilməsi və şəhər avtomobil yollarının əsaslı təmiri işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

APA-nın məlumatına görə, Sumqayıt şəhərində abadlıq-quruculuq işlərinin davam etdirilməsi üçün Sumqayıt Şəhər İcra Hakimiyyətinə Prezidentin ehtiyat fondundan 10 milyon manat, o cümlədən çoxmənzilli binaların dam örtüklərinin dəyişdirilməsi üçün 5 milyon manat, şəhər avtomobil yollarının əsaslı təmiri üçün 5 milyon manat ayrılıb.

Maliyyə Nazirliyinə müvafiq məbləğdə maliyyələşməni təmin etmək tapşırılıb.

## "Prezidentlərinin görüşü barədə Rusiya XİN-in məlumatı korrektə edilməmiş məlumat olub"

**"Azərbaycan, Ermənistan və Rusiya prezidentlərinin görüşü barədə məlumatı Prezident administrasiyası yayacaq. Bu bizim yox, onların səlahiyyətində olan məsələdir".**

APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bunu Rusiya Xarici İşlər Nazirliyinin xüsusi nümayəndəsi Mariya Zaxarova bu gün keçirdiyi brifinqdə bildirib.

"O ki qaldı dünən Rusiya XİN-in saytında gedən məlumata, qeyd etmək istəyirəm ki, bu, korrektə edilməmiş məlumat olub. Qriqori Karasinlə Fransa səfirinin görüşündə Sankt-Peterburqda Dağlıq Qarabağ münaqişəsi iлə bağlı sammitin keçirilməsinin mümkünlüyü müzakirə olunub. Burada konkret görüşün keçiriləcəyindən deyil, keçirilməsinin mümkünlüyündən söhbət gedir. Ona görə də biz həmin məlumatı korrektə elədik", - deyə M.Zaxarova vurğulayıb.

Qeyd edək ki, xarici işlər nazirinin müavini Qriqori Karasinin Fransa səfiri Jan Moris Riperlə görüşünə dair Rusiya XİN-in məlumatında tərəflərin Sankt-Peterburqda keçiriləcək Dağlıq Qarabağ münaqişəsi ilə bağlı üçtərəfli sammiti müzakirə etdikləri qeyd olunub. Sonradan isə həmin hissə dəyişdiriləřək, görüşdə sadəcə Dağlıq Qarabağ məsələsinin müzakirə olunduğu yazılıb.

## "Neftin qiyməti 100 dollar ola bilər"

**Əgər kartel mövqeyi dəyişməzsə, qiymət illərlə 50-60 dollar səviyyəsində qalacaq. "10 ildən sonra neftin qiyməti 100 dollar ola bilər". ANS PRESS-in məlumatına görə, bunu "Qazprom neft"in baş direktoru Aleksandr Dyukov deyib.**

Qurum rəhbəri hesab edir ki, əgər kartel mövqeyi dəyişməzsə, o zaman neftin qiyməti illərlə 50-60 dollar səviyyəsində qalacaq. "Bundan başqa, əgər OPEC öz mövqeyini yumşaltsa və neft hasilatının səviyyəsinin artırmasını dayandırsa, o zaman neftin qiyməti, hətta on ildən sonra 90-100 dollara kimi qalxa bilər", - Aleksandr Dyukov bildirib.

İyunun 7-də neftin qiymətində cüzi bahalaşma müşahidə olunur. Belə ki, "Brent" markalı neftin qiyməti 51 dolları ötüb. İCE qitələrarası fond birjasında "Brent" markalı neftin qiyməti 0,9% bahalaşaraq 51.05 dollara çatıb.

Məlumata görə, neftin qiyməti son dəfə ötən il oktyabrın 12-də də bu qiymətdə olub.

Bu ilin əvvəllərində isə qiymət 30 dolardan da aşağı idi.

## Azərbaycanın çaylarında daşqınlar gözlənilir

**Son günlər Azərbaycan ərazisində yağıntıların artması çaylarda daşqın təhlükəsi yaradıb. AMEA Coğrafiya İnstitutunun direktor müavini Elbrus Əlizadə bildirib ki, yağışlardan sonra ölkə üzrə əsas təhlükəli vəziyyət daşqın və sürüşmələrlə bağlıdır. Hazırda çaylardan daşqınların keçdiyini deyən direktor müavini qeyd edib ki, daşqın təhlükələri əsasən, Böyük Qafqazın cənub yamacındakı çaylardadır:**

"Bundan əlavə, Lənkəran çaylarında, şimal-şərq yamacda - Tovuz, Gədəbəy, Daşkəsən zonası çaylarında, Gəncəçay zonasında daşqınların olma ehtimalı yüksəkdir. Bunların da səbəbi yağıntının çox olması ilə bağlıdır. Hazırda çaylarda gursululuq dövrüdür. Yaxın günlərdə yağışların çox yağması nəticəsində gursululuq daşqınlara çevrilə bilər".

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

# "6 milyona obyekt aldım ki, uşaqlarım dolansın"

## Bayraq meydanının həbsdə olan rəisinin məhkəməsi davam edir

**Bakı Ağır Cinayətlər Məhkəməsində dələduzluqda təqsirləndirilən Dövlət Bayrağı Meydanı Kompleksinin sabiq rəisi Rəşad Məmmədov, onunla birlikdə tutulan İsfəndiyar İsfəndiyarov və Arzu Məmmədovun cinayət işi üzrə məhkəmə prosesi keçirilib.**



Musavat.com-un məhkəmə prosesində iştirak edən əməkdaşı xəbər verir ki, hakim Əlövsət Abbasovun sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxs, hazırda ev dustaqlığında olan Arzu Məmmədovun ibtidai istintaqa və məhkəməyə verdiyi ifadələrdə ziddiyyətlər olduğundan o, dövlət ittihamçısının suallarını cavablandırıb.

İlk ifadəsində tapşırıqları Rəşad Məmmədov və İsfəndiyar İsfəndiyarovdan aldığını qeyd edən A.Məmmədov məhkəməyə ifadəsində Rəşad Məmmədovu bir dəfə gördüyünü və ondan şəxsən tapşırıq almadığını deyib.

A.Məmmədov ibtidai istintaqa ifadəsində zərəçəkmiş kimi tanınan Zabil Salmanovla görüşdə onu aldatmaqla əmlakını ələ keçirmək fikirlərinin olduğunu qeyd edib. Lakin məhkəməyə ifadəsində o, həmin vaxt əsəbi və gərgin olduğundan yanlış ifadə verdiyini bildirib.

Z.Salmanovdan Nizami 44 ünvanında yerləşən obyekti 6 milyon dollara Rəşad Məmmədova satması ilə bağlı razılıq alınıb. A.Məmmədov prokurorun sualını cavablandırarkən bildirib ki, o sadəcə olaraq dayısı oğlu İsfəndiyar İsfəndiyarovun tapşırığına əsasən pulu aparıb bankda Zabil Salmanova verib: "6 milyonun 4.7 milyonunu mənə çantada verdilər. Mən də aparıb bankda təhvil verdim. Danışıq belə idi ki, 1.3 milyonun qarşılığında isə Hüseyn Cavid bağı ətrafında olan 90 kvadratmetrlik bir obyekt də Zabilə veriləcəkdi. Bundan başqa mənim heç bir prosesdən xəbərim olmayıb. Danışıqları İsfəndiyar və Rəşad Məmmədov bilirdi". 6 milyona alınan obyektlər Arzu Məmmədovun adına keçirilib. Obyektlər Rəşad Məmmədova məxsus idi".

Prokuror Rəşad Məmmədovun adına alınan obyektlərin daha sonra onun xanımının, ardınca isə qayınanasının adına keçirilməsində məqsədin nə olması barədə A.Məmmədova sual ünvanlayıb.

A.Məmmədov cavabında yalnız ona verilən tapşırığı yerinə yetirdiyini söyləyib.

Hakim obyetkin nə məqsədlə xanımın adından çıxarıb qayınanasının adına keçirməsini Rəşad Məmmədovdan soruşdu. Rəşad Məmmədov bu suala cavab vermək istəmədiyini və bunun ailə daxili məsələ olduğunu bildirdi: "Bu bizim öz işimizdir. Belə etmək istədik, etdik. Bu haqda danışmaq istəmirəm".

**Hakim Rəşad Məmmədovdan bu qədər obyekti nə məqsədli almasını da soruşub. R.Məmmədov bunu uşaqlarına gələcək qurmaq məqsədi ilə etdiyini söyləyib:** "Pulum var idi və istədim ki, obyekt alım. Başqa yerdən qazancım yox idi. Gələcəkdə uşaqlarım dolansın deyə alırdım. Həm də əlimdə pulum var di. Qaldıqca "ölürdü". Buna görə də obyekt aldım".

**Məhkəmə prosesi iyunun 14-də davam etdiriləcək.**



## Məhəmməd Əlinin dəfnində Ərdoğana qarşı hörmətsizlik

**Əfsanəvi boksçu Məhəmməd Əlinin dəfn mərasiminə qatılmaq üçün ABŞ-a yollanan Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan səfərini yarıda kəsərək ölkəsinə geri qayıtmağa qərar verib.**

"Anspress" xəbər verir ki, Ərdoğan cümə günü torpağa basdırılacaq Məhəmməd Əlinin dəfninə qatılmayacaq. Cümə axşamı ahsıxa türklərinin təşkil etdiyi iftar süfrəsindən sonra Türkiyəyə qayıdacaq. Buna səbəb Rəcəb Tayyib Ərdoğana qarşı edilən hərəkətin xoş qarşılanmaması olub. Məhəmməd Əlinin məzarı üstünə Kəbə örtüyündən bir parça qoymaq istəyən prezidentə rədd cavabı verilib. Bunu özlərinin edəcəklərini deyərək, parçanı Ərdoğandan alıblar.

Ərdoğan və Din naziri Mehmet Görmezin Qurani-Kərimi oxumaq istəyinə də etiraz edən dəfn təşkilatçıları Türkiyə prezidentinə qarşı hörmətsizlik edib. Bunu əsas gətirərək, Rəcəb Tayyib Ərdoğan səfərini yarıda qoyub geri qayıdacağını deyib.

Dəfn namazı qılınan zaman isə türkiyəli cangündənlərlə onların amerikalı həmkarları arasında qarşıdurma yaşanıb.

Bir neçə gün öncə Ərdoğanın Məhəmməd Əlinin vida mərasimində çıxış etməyəcəyi də deyilib. Boksçunun ailəsinin sözçüsü Bob Qunnell çıxış edəcək şəxslər siyahısında xaricdən gələn qonaqlara yer ayrılmadığını bildirib.

**Qunnell belə olan halda prezident Ərdoğan və İordaniya kralı 2-ci Abdullahın çıxışlarının proqramdan çıxarıldığını bildirib.**




## "Samsung" Azərbaycanda fəaliyyətini dayandırmır - rəsmi açıqlama

**"Samsung Electronics Central Eurasia" şirkətinin Azərbaycanda nümayəndəliyini məlumat yayaraq, ölkəmizdəki fəaliyyətinin bağlanması barədə bbir sıra mətbuat orqanlarında çıxan xəbərlərin həqiqətə uyğun olmadığını bəyan edib.**

Şirkətin mətbuat xidmətindən Musavat.com-a daxil olan məlumata görə, Samsung Electronics-in Azərbaycanda nümayəndəliyi xəbər verir ki, şirkətin Azərbaycan ərazisində hazırki marketinq və əməliyyat fəaliyyəti "Samsung Electronics Caucasus Company" MMC tərəfindən icra olunur və onun nəzarəti altındadır. "Samsung şirkəti Azərbaycan bazarında öz fəaliyyətini dayandırmağı planlaşdırmır", - nümayəndəlikdən verilən məlumatda bildirilir.




## Ermənistana keçən qadın Azərbaycana qaytarıldı

**Bir neçə gün öncə Ermənistana keçən qadın Azərbaycan tərəfə qaytarılıb. ANS PRESS-in məlumatına görə, Gədəbəy rayonu Arabacı kənd sakini Qətibə Ələkbərova bu gün Azərbaycan tərəfə təhvil verilib.**

Qaytarılma prosesi bu gün saat 13 radələrində Azərbaycan-Ermənistan sərhəddində baş tutub. Proses beynəlxalq Qızıl Xaç Komitəsinin vasitəçiliyi ilə baş tutub.

Adıçəkilən qadın 3 gün öncə Ermənistan tərəfə keçib. Qadın ruhi xəstəlikdən əziyyət çəkib. Onun anası Kübra Ələkbərova ANS PRESS-ə açıqlamasında bildirib ki, qızı bundan əvvəl də bir neçə dəfə evdən qaçıb:

"Onu dəfələrlə ruhi xəstəliyinə görə müalicə etdirmişdik və daim nəzarətdə saxlayırdıq. Sonuncu dəfə ayın 5-də gecə saatlarında evdən qaçıb və geri qayıtmayıb. Qətibə hər gün dərman atmasa yaşaya bilməz. Qızım Qazax Rayonlararası Ruhi Əsəb Xəstəxanasında müalicə edilirdi. Elə həmin gün də evdən Qazaxa - xəstəxanaya getmək adı ilə çıxıb və ondan sonra isə yox olub".

**Qadının yaşadığı Gədəbəy rayonu, Arabacı kəndinin icra nümayəndəsi Habil Qasımov da ANS PRESS-ə açıqlamasında bildirib ki, Qətibə Ələkbərova bir dəfə ailəli olub, ancaq övladı yoxdur. Qadın boşanaraq ata evinə qayıtmışdı.**

# Rəsul Quliyevin axtarışının gizlədilməsinin pərdəarxası...

## Sabiq spiker mesaj verdi: "Bu, baş verə biləcəklərin startıdır"

**Amerikada mühacir həyatı yaşayan eks-spiker Rəsul Quliyevin adının İnterpolun axtarış sistemindən çıxarılması barədə xəbər vermişdik. 18 il üzərində barəsində axtarış elan olunan Quliyevlə bağlı atılan son addım maraq doğurub.**

Xəbərin yayıldığı ilk anlardan bəzi şübhələr olsa da, artıq buna heç bir əsas yoxdur. Çünki İnterpolun Bakı ofisi xəbər dezinformasiya olsaydı, indiyə qədər təkzib vermiş olardı. Hələ ki buna rast gəlmirik. Eyni zamanda, İnterpolun Bakı ofisinin rəsmi web səhifəsində və baş ofisin web səhifəsində parlamentin sabiq sədrinin adı yoxdur.

Bir çoxları R.Quliyevin yaxın zamanlarda vətənə qayıdacağını danışır və onun adının axtarış sistemindən çıxarılmasının ölkəyə dönüşü üçün "yaşıl işıq" olduğunu düşünürlər. Bu fikirlərdə müəyyən qədər həqiqətlər görünür. Belə ki, sabiq deputat, 2005-ci ildə barəsində cinayət işi açılan və İnterpolun axtarışında olan Rza İbadov barəsində də ötən ilin sonlarında bu cür qərar verilmişdi. Məhz bundan sonra ölkəyə gələn İbadov hazırda rahat şəkildə bu hüququndan istifadə edir.

*Eks-spikerlə bağlı da eyni proseslərin getdiyini düşünmək olar. R.İbadov kimi onun üzərində də cinayət işi var, barəsindəki axtarış qərarı isə götürülüb. Bu hüquqdan R.Quliyev yararlana biləcəkmi?*

Eks-spikerdən ətrafında cərəyan edən hadisələrlə bağlı münasibət öyrənməyə çalışsaq da, bu, mümkün olmadı. Amma onun facebook səhifəsində yazdığı şərh maraq doğurur. Məlum qərarı sual ünvanlayan şəxslərə şərh edən eks-sipker yazıb: "Mənim uzunmüddətli yazışmalar, izah etmələrimin əsasında İnterpol rəhbərliyi düzgün qərar qəbul edib. Bunun əlavə bir şərhə ehtiyacı yoxdur. Bu da baş verə biləcəklərin startıdır, bu da heç bir şərhsiz..."

**Rəsul Quliyevin Azərbaycandakı nümayəndəsi, Gələcək Azərbaycan Partiyasının sədri Ağasif Şakiroğlunun məsələyə münasibətini öyrəndik:** "Mediada yayımlanmış bu informasiya həqiqəti əks etdirir. Bir faktı qeyd edim ki, İnterpolun bu barədə qərarı iyunun 9-a deyil, mayın əvvəllərinə təsadüf edir. Həmin andan etibarən, İnterpolun baş ofisi apardığı araşdırmalar və gəldiyi qənaətlər nəticəsində bu qərarı verib. Rəsul Quliyev hər hansı bir cinayətə görə beynəlxalq axtarışa verilməyib. Siyasi məqsədlər naminə rəqibə qarşı İnterpoldan istifadə edilib. Bu səbəblərdən haqlı olaraq, İnterpol Rəsul bəyin axtarışına "stop" verib. Onun ölkəyə qayıdışı üçün hüquqi müstəvidə mübarizəmiz davam edir. Bir partiya olaraq, liderimin heç bir cinayət törətmədiyinə əminik. Bu istiqamətdə beynəlxalq səviyyədə də mübarizəmizi davam etdiririk də. Bu ilin sentyabrında Rəsul Quliyevin ölkədən çıxışının 20 ili tamam olur. Ümid edirik ki, bu 20 il, 21 il olmayacaq.


Rəsul Quliyev

Çox yaxın zamanlarda Rza İbadov kimi deyil, müxalifət lideri kimi Rəsul Quliyevin ölkəyə dönüşünə nail olacağımıza inanırıq. Dəyişən dünyada bunun gözlənilən proses olduğunu vurğulamaq istərdim. Düşünürəm ki, Azərbaycan demokratiyaya açılmalıdır. Hakimiyyət götürdüyü beynəlxalq öhdəliklərə ya əməl edəcək, etməsə belə, etdiriləcək. Bunun başqa yolu yoxdur. İlk uğurumuz deyil, böyük uğurlarımız qarşıdadır".

### Müzəffər Baxış: "Məhkəmələr onun barəsində həbs qərarı verə bilərlər"

**Hüquqşünas Müzəffər Baxış** bildirdi ki, eks-spikerin heç bir cinayət əməli olmayıb: "Onun adını İnterpola kimlər yerləşdiribsə, qanunsuzluq ediblər. Azərbaycan reallığına uyğun olaraq addım atılıb. Bu axtarışın elan olunmasının özü qanunsuz idi. Ümumiyyətlə, onun və digərlərinin ölkəyə gəlmələrinin yasaq edilməsi Azərbaycan Konstitusiyanın 28-ci maddəsinin 4-cü hissəsinin pozulmasıdır. Bu maddənin 4-cü hissəsinə görə, hər bir vətəndaşın istədiyi vaxt ölkəyə gəlmək hüquqları var. Heç kim bu hüququ məhdudlaşdıra bilməz. Onun barəsində qaldırılan cinayət işinə xitam verilməsini dəqiq bilmirəm. Bu baxımdan o ölkəyə gələrsə, siyasi sifariş əsasında məhkəmələr onun barəsində həbs qərarı verə bilərlər. Mülahizələrimi deyirəm. Məsələnin əsl mahiyyətini deməkdə çətinlik çəkirəm".

**Xatırladaq ki, R.Quliyev 1993-96-cı illərdə parlamentin sədri olub. Hakimiyyət daxilində baş verən olaylara görə 20 il öncə ölkəni tərk edib. 2005-ci ildə vətənə qayıtmağa cəhd etsə də, buna imkan verilməyib. Ukrayna ərazisində həbs edilən sabiq spiker geriyə-Amerikaya qaytarılıb.**

❑ Cavanşir ABBASLI

# Vergi müfəttişləri "qollarını çırmayacaq"

## Cərimələrin 50 faizi vergi əməkdaşlarına çatacaq

**Vergi Məcəlləsinə gözlənilən dəyişikliklərə görə, Azərbaycanda vergi ilə bağlı maliyyə sanksiyalarından əldə olunan vəsaitlərin 50 faizi vergi əməkdaşlarına çatacaq. Dəyişikliyə əsasən, vergi orqanları işçilərinin sosial müdafiəsi, o cümlədən, vergi orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, vergi sahəsində elmi-texniki potensialın artırılması məqsədilə vergi orqanları tərəfindən tətbiq edilən və dövlət büdcəsinə daxil olan maliyyə sanksiyaları məbləğinin 50 faizi hesabına bu orqanların büdcədənkənar fondu yaradılır.**

Cərimələrin 50 faizinin vergi müfəttişlərinin payına düşməsi isə cəmiyyətdə birmənalı qarşılanmayıb. Hökumətin bu qərarı vergi toplamalarının artırılması üçün verdiyi bəlli olsa da, əksər ekspertlər bunu sahibkarlıq mühitinə qarşı təzyiq kimi qiymətləndirib. Belə ki, qanuna dəyişiklik qəbul olunarsa, vergi əməkdaşları daha çox cərimə yazmaqda maraqlı olacaqlar, hətta həqiqətə uyğun olmayan faktlar tərtib edib, ədalətsiz cərimələr də yazacaqlar. Bu isə son nəticədə sahibkarlıq obyektlərinin bağlanmasına, vergi ödəyicilərinin sıradan çıxmasına, son nəticədə büdcəyə vergi daxilolmalarının azalmasına səbəb olacaq.

**İqtisadçı ekspert Azər Mehtiyev** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, hökumət büdcəyə vergi daxilolmalarının artmasını istəyirsə, vergi müfəttişlərinin fəaliyyətini deyil, sahibkarlığın fəaliyyətini stimullaşdırmalıdır: "Vergi toplamaları ölkənin çox ciddi problemlərindən biridir. Dünya bazarında neftin ucuzlaşdığı ərəfədə dövlət ehtiyaclarının ödənilməsi üçün büdcəyə daha çox vergi toplanması zəruri edir. Lakin hökumət nəzərə almalıdır ki, daha çox vergini sahibkarı sıxmaq, cərimələr tətbiq etmək yolu ilə yığmaq mümkün deyil. Ölkədə biznes mühitinin pisləşməsi, sahibkarlığa təzyiqlərin edilməsi bir müddət sonra vergi ödənişlərinin də azalmasına səbəb ola bilər. Dövlət daha çox vergi toplamaq istəyirsə, ölkədə daha ciddi sahibkarlıq mühiti formalaşdırmalıdır, azad rəqabətli mühit yaratmalıdır, insanların azad təşəbbüskarlığı üçün meydan verilməlidir ki, öz istədikləri işlərlə məşğul olsunlar. Bu isə azad məhkəmə sisteminin yaradılmasından, sahibkarlığa maneələrin, məmur sahibkarlığının aradan qaldırılmasından keçir. Ancaq bütün bunları nəzərdən keçirərkən görürük ki, real olaraq bu istiqamətdə hər hansı konkret addım atılmır. Əksinə, hökumət vergi cərimələrinin artırılması üçün müfəttişlərə stimul verir. Bir tərəfdən sahibkarlıq fəaliyyəti üçün lisenziyalar aradan qaldırılır, digər tərəfdən vergi yolu ilə, qanunsuz müdaxilələr yolu ilə sahibkarlıq mühitini pisləşdirir".



**Ekspertin sözlərinə görə, toplanan vergilərin 50 faizinin vergi müfəttişlərinə saxlanılması heç də problemin həlli yolu deyil:** "Əksinə, bu, sahibkarlığa mənfi təsir göstərəcək. Getdikcə vergilərin toplanmasının artması əvəzinə azalma baş verəcək. Bu, iqtisadiyyat elmində də dəfələrlə sübut olunub ki, ilk dövrlər belə addımlar praktik olaraq vergilərin artmasına səbəb olsa da, bir il sonra sahibkarlıq obyektlərinin, eləcə də vergi ödəyicilərinin sayı azalacaq.

Çünki vergi müfəttişlərinin tətbiq etdikləri cərimələrin nə dərəcədə ədalətli olduğunu təyin etmək üçün hər hansı mexanizm də yoxdur. İnsanlar bundan narazı qalacaqları təqdirdə məhkəmələrə müraciət etsələr də, indiki məhkəmə sistemi ədalətin, həqiqətin kimin tərəfində olduğunu ortaya qoya bilməyəcək. Yəni çox təhlükəli proseslər gedir. Bu proseslər bir müddətdən sonra ölkədə vergi toplanmasının çoxalmasını deyil, bir müddətdən sonra azalmasına, büdcə vəziyyətinin ağırlaşmasına gətirib çıxara bilər".

**Milli Məclisin İqtisadi Siyasət Komitəsinin üzvü Vahid Əhmədov** isə bildirdi ki, qanunvericilikdə nəzərdə tutulan bu dəyişiklik sahibkarlar üçün hər hansı problem yaratmaqacaq: "Vergi sistemində əvvəllər də bu var idi. Sadəcə 20 faiz idi, indi onu 50 faizə qaldırıblar. Yəni yığılan cərimələrin 50 faizini vergi müfəttişləri öz cari xərcləri tikinti işləri üçün və sairə sərf edə bilərlər. Lakin bu qanunun verilməsi hər zaman sual doğurur ki, o zaman vergi müfəttişləri daha çox cərimə yazmaqda, daha çox gəlir əldə etməkdə maraqlı olacaq. Amma nəzərə alsaq ki, bu qayda bu vaxta qədər polis sistemində, gömrük sistemində də tətbiq olunub və elə bir problem yaşanmayıb. Ümumiyyətlə, dünya praktikasında da bundan istifadə edilir. Düşünürəm ki, vergi sistemində bu hansısa problem yaradacaq. Bir qədər açıq danışsaq, əvvəllər paket sistemi fəaliyyət göstərirdi. Bu mexanizmdən kəskin şəkildə istifadə edirdilər və Azərbaycanda böyük problem idi. İndi isə hansı müfəttiş yaxşı çalışacaqsa, vergi borclarını yığmağa nail olacaqsa, o da mükafatını alacaq. Həmçinin ola bilər ki, vergi orqanları bu vəsaitdən idarələrinin cari təmir və tikinti işləri üçün istifadə etsinlər".

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 127 (6448) 11 iyun 2016

**Həbsdə olan sabiq səhiyyə naziri Əli İnsanov gündəmdən düşmür. Buna səbəb sabiq naziri hər keçən gün azadlığa aparan yoldur. Artıq İnsanovun həbsxana həyatı ilə vidalaşmağına 4 ay qalır. Oktyabrın 17-də onun həbsinin 11 ili tamam olacaq ki, bu onun azadlığa çıxacağı gün olacaq.**

# "İnsanov iqtidara təhlükə ola bilər" iddialarına cavab gəldi



İndiyə qədər sabiq nazirin istər məhkəmələrdə dediyi sözlərdən, istərsə də, vəkilləri vasitəsilə göndərdiyi mesajlardan o nəticəyə gəlmək olar ki, o azadlığa çıxdığı gündən siyasi fəaliyyətlə məşğul olacaq. Heç şübhəsiz ki, 11 il həbsdə olan, Qərbi azərbaycanlılar arasında hələ də hörmətini saxlayan bir şəxsin siyasətə dönüşü ölkə iqtidarı üçün ciddi başağrısına çevrilə bilər. Bundan əlavə, xalq arasında sınmadan 11 il həbs yatan bir şəxsə qarşı münasibəti indidən təxmin etmək elə də çətin deyil. Bu baxımdan İnsanovun qısa müddətdə ətrafına çoxsaylı elektorat toplayacağı ehtimalları düşük görünmür.

**İqtidaryönlü deputat Fəzail Ağamalı** Azərbaycanda istənilən şəxsin azad şəkildə siyasi fəaliyyətlə məşğul olmaq hüquqlarının olduğunu bildirdi: "Əli İnsanov azadlığa çıxdıqdan sonra siyasi fəaliyyətlə məşğul olacaqsa, bu onun seçimi olacaq. Onun bu seçimi konstitusiya ilə təsbit olunur. Onun siyasətlə məşğul olmasının iqtidar üçün təhlükələrinə gəlincə, bu barədə ciddi fikir söyləməyi belə lüzum bilmirəm. O, siyasətlə məşğul olarsa, bunun indiki iqtidara, ölkə prezidenti İlham Əliyevin komandasına qarşı alternativ olması perspektivini görmürəm. Çünki prezidentin mövqeləri cəmiyyət daxilində olduqca güclüdür. Onun siyasi dayaqları təkcə YAP və onunla müttəfiq olan siyasi qurumlarla məhdudlaşmır. Heç bir partiyaya üzv olmayan şəxslər tərəfindən də onun siyasəti müdafiə olunur. Ölkə başçısının həm Azərbaycanda, həm də beynəlxalq aləmdə böyük nüfuzu var. Onun liderliyi təkcə ölkə daxilində deyil, dünyada da qəbul olunur. Uzun illər boyu İlham Əliyev səviyyəsinə qalxacaq siyasətçi görmürəm".

**F.Ağamalı İnsanovun hakimiyyətin mətbəxindən çıxmasının ona verə biləcəyi üstünlüklərlə bağlı fikirlərə də toxundu:** "Bildiyim qədəri ilə onun hakimiyyət daxilində dayaqları yoxdur. O, səhiyyə naziri idi və o zaman çalışdığı komandadan kimsəni onun yanında görmürəm. Hazırda müxalifət kimi hakimiyyətə qarşı mübarizə aparmaq sosial baza baxımından çox çətindir. Çünki faktiki olaraq, bu gün müxalif sosial baza uzun illər mübarizə aparan müxalif qurumlar daxilində bölünüb. Bu cəmiyyətin 15-20% civarındadır. Arxasında sosial baza olmayan, oturuşmuş qurumun rəhbəri olmadan, cəmiyyətin böyük kəsimini ətrafına toplamadan hər hansı bir şəxsin hakimiyyətə gəlməsi mümkün deyil. Bu baxımdan gələcək proqnoz Əli İnsanovun xeyrinə deyil. Onu bu gün dəstəkləyən siyasi qüvvə yoxdur, siyasi partiya lideri deyil. Gələcəkdə bu yöndə partiya yaratsa belə, onun formalaşması uzun zaman tələb edəcək. Nəticə etibarı ilə ölkə başçısına qarşıdakı zamanlarda da alternativ olacaq lider görmürəm. Uzaq keçmişə nəzər salaq. 2003-cü ildən üzü bəri ölkə başçısı müxalifətdə kifayət qədər söz sahibi olan İsa Qəmbər, Rəsul Quliyev, Əli Kərimli kimilərini tamamilə məğlub durumda qoydu. Onların bəziləri siyasi fəaliyyətlərinə son qoydular, ya da epizodik şəkildə hələ də siyasətlə məşğul olurlar. Bu Azərbaycanın reallığında görünən bir səhifədir. Buradan çıxan nəticə odur ki, İlham Əliyev siyasətçi, dövlət xadimi kimi üstün keyfiyyətlərə malikdir. Onun liderlik keyfiyyətlərinə alternativ olmaq böyük problemdir. Bu baxımdan Əli İnsanovu məğlublar sırasında görürəm".



**Fəzail Ağamalı:**
"Əli İnsanovu məğlublar sırasında görürəm"



**Bəxtiyar Sadıqov:**
"İddialar gülünc səslənir"

**"Azərbaycan" qəzetinin baş redaktoru, deputat Bəxtiyar Sadıqov** ölkə daxilində hakimiyyətə alternativ partiya və liderin olmadığı qənaətindədir: "Əli İnsanov həbs olunmamışdan əvvəl nazir vəzifəsində işləyib. O nə siyasi partiya, nə hərəkat rəhbəri, nə də milli azadlıq hərəkatında xidməti olan şəxsdir. Onun heç bir sosial bazası yoxdur. Belə şəxslər sosial baza deyəndə adətən öz işçilərini nəzərdə tuturlar. Gerçəklik isə fərqlidir. Rəhbər işdən azad olunduqdan sonra-özü də necə azad olunur-öz işçiləri elə insanı nəinki eşitmək, bəzən onunla görüşməkdən də qaçırlar. O insan cəzasını çəkib çıxacaq. Yəqin ki, səhvlərini də bilir. Bundan sonra həyatını necə quracaq, öz şəxsi işidir. Amma bunu kimsə başqa cür hallandırır. Əgər müxalifət onun çıxmasından qorxursa, bu onların problemidir. İqtidara gəlincə, bu yaxınlarda xarici və yerli monitorinqlər sorğu apardılar, məlum oldu ki, ölkə başçısının 97% səsi var. Biz Yeni Azərbaycan Partiyası, iqtidar olaraq, bizə ölkə daxilində heç kim nə problem yarada bilər, nə də xoşagəlməz addım ata bilər. Bir şəxsin azadlığa çıxıb nəsə edə biləcəyi barədə iddialar gülünc səslənir. İnsanov yaşlı şəxsdir. İstəməzdim ki, onun adını mətbuat çox hallandırsın. Onun özü bu barədə nəsə demir, kimisə hədələmir. Amma burada müxalifət xoflanır. Yaxşı olardı ki, hər kəs öz işi ilə məşğul olsun. İnsanlar da səhvlərindən nəticə çıxarıb, sonrakı ömürlərini səssiz yaşamağı bacaralar. Bəzi insanlar sakitlik, əmin-amanlıq olanda, sanki onlar qaşınırlar. Yaranan vəziyyət onların xoşuna gəlmir. Kiminsə adından danışmağa başlayırlar ki, ay bunu edəcək, onu edəcək. Ay kişi, sən nə bilirsən axı? Yanındasan? O insan elə yerdədir ki, bu fikri səsləndirənlərin heç biri onunla təmasda ola bilmir, onun yanına görüşə getmir. Bu baxımdan belə söhbətlər ciddi deyil".

❑ **Cavanşir ABBASLI**

# "Kreditlərdə heç bir güzəşt olmayacaq"

## Antikollektorun rəhbəri Əkrəm Həsənov: "Vətəndaşı elə qorxudurlar ki, icra məmurlarına rüşvət verir"





**Ölkədə kredit problemi ciddiləşsə də, məhkəmələrə şikayət edən vətəndaşların sayı çox deyil. Bir neçə ay əvvəl borcluların problemlərini həll etmək məqsədilə yaradılan Antikollektora edilən müraciətlər də azdır. Əməkdaşımız Antikollektorun rəhbəri Əkrəm Həsənovla görüşüb və onlara edilən şikayətlərlə bağlı statistika ilə maraqlanıb.**

Məlum olub ki, borcluların problemi ciddi olsa da, hüquqi müstəvidə həll etməkdə maraqlı deyillər: "Bizə indiyədək 800 nəfərə yaxın insan müraciət edib. Hamısına da pulsuz hüquqi məsləhət vermişik. Doxsan nəfərlə bağlı məhkəmə müdafiəsinə çıxmışıq. Əksəriyyətin vəziyyəti belədir ki, onların aylıq gəliri ya ümumiyyətlə yoxdur, ya da azdır. Biz də onları başa salırıq ki, onların özlərini məhkəmədə müdafiə etməyinə heç ehtiyac yoxdur. Məhkəməni uduzsalar belə, məhkəmə onlara heç nə edə bilməz, çünki pulları yoxdur. Məhkəmə qərarınn icra anında kömək edə bilərik. İcra məmurları onları bəzən həbslə qorxudurlar. Bizim işimiz daha çox hüquqi yardımdan çox psixoloji yardım olub. Vətəndaşlar borca görə həbs olunacaqlarından qorxurlar. Biz də başa salırıq ki, qorxu üçün heç bir əsas yoxdur. Bəzi insanları biz özümüz müdafiə etmək istəməmişik. Çünki imkanları var, sadəcə krediti ödəməmək üçün yollar axtarırlar. Bəzi insanların məhkəmə müdafiəsinə ehtiyacı olub, ancaq imkanları olmadığından, biz onlara ödənişsiz yardım göstərmişik. Borca görə həbslərlə bağlı işləri də pulsuz edirik. Amma yenə də müraciət edən çox deyil. Həbslə qorxudulma çox olsa da, həbs həddinə gəlib çatmır hamısı. Vətəndaşı elə qorxudurlar ki, müxtəlif yollarla pul tapır, gətirir. İcra məmurlarına rüşvət verir ki, bir neçə ay ona dəyməsinlər. Yeddi faiz icra məmurlarının öz fonduna gedir, onları da bu faiz maraqlandırır. Ona görə həmin pulu verə bilən vətəndaşı həbs etmirlər, vaxt verirlər. Bankın pulunun hayında deyillər. Həbs olunanların da çoxu bizə müraciət etmir, mentalitetə görə ayıb hesab edirlər. Bəziləri də iş işdən keçəndən sonra gəlir bizə müraciət edir. Mən borca görə həbs məsələsi ilə bağlı geniş məqalə də hazırlayıram. Həbslərin yolu dünya tarixində necə olub, borca görə həbslər eramızdan əvvəl necə olub, indi necədir, başqa ölkələrdə və bizdəki vəziyyət hansı həddədir, bunu araşdırmışam. Bizdə hətta borca görə həbsi dəstəkləyən və qanuni hesab edən vəkillər var, göründə dəhşətə gəlirəm".

**Antikollektorun apardığı məhkəmələrə gəldikdə isə hələ ki, yalnız birinci instansiyanın qərarları var:** "Üç iş üzrə qərar var. Onlar dollar avtokreditləridir. Biz məsələ qoymuşduq ki, bank vətəndaşı aldadıb. Avtokrediti dollarla verə bilməzdi, çünki vətəndaşa dollar lazım deyildi. Heç bank vətəndaşa pul verməyib, pulu manatla avtodilerə köçürüb. Dollarla isə vətəndaşla kredit müqaviləsi bağlayıb, bu, düzgün deyil. Üç iş bitib, məhkəmə vətəndaşın iddiasını təmin etməyib. Digər işlər üzrə məhkəmə işləri gedir. Nə qədər çəkəcək, bilmirik. Vətəndaşlara izah da edirik ki, işlər illərlə gedə bilər. Vaxt isə bankın xeyrinə deyil".

**Ə.Həsənov vətəndaşların müraciətlərinin kütləvi olmamasının səbəblərini də açıqlayıb:** "Səbəblər müxtəlifdir. Birincisi odur ki, əhalidə yenə müəyyən gözlənti var ki, nəsə güzəşt olacaq. Ancaq heç bir güzəşt olmayacaq. Çünki güzəşt üçün pul lazımdır, pul da yoxdur. Artıq aydındır ki, güzəşt bankların hesabına edilə bilməyəcək. Bankların əksəriyyəti maliyyə hesabatını dərc edir, baxırsan, vəziyyəti pis deyil. Amma maliyyə hesabatları həqiqətə uyğun deyil, yəni bankların vəziyyətləri pisdir. Dövlət kömək etməlidir. Dövlət rəsmiləri də bir neçə dəfə deyiblər ki, kömək olmayacaq. İnsanlar isə kömək gözləyib məhkəmələrə getmirlər. Banklar isə çağırıb vətəndaşları aldadırlar, şərtlərdə aldadırlar. Deyirlər ki, ödəniş edin, kursu 1,05-dən hesbalayaq, amma özləri üçün 1,50-dən qeyd aparırlar, vətəndaşlar da bunu bilmirlər. Bunu biləndən sonra yanımıza gəlirlər ki, banklar yenə onları aldadıb. Bildiririk ki, bankdan yazılı nəsə, kağız almalısınız ki, bu kursla ödəniş etmisiniz, bank onu vermədisə, səni aldatdı. Bəziləri bizə birinci instansiyanı uduzandan sonra gəlib deyirlər ki, bank məhkəməyə verməyəcəyini demişdi, amma verdi. Sonra bu işi aparmaq ağırdır, birinci instansiyanı uduzublar. Hətta ümidsiz işlərdə belə iddialar kütləvi olsa, banklar buna davam gətirməyəcək. Çünki elementar gücləri yoxdur. Bu qədər işi aparmağa gücləri yoxdur. Vətəndaşın müraciət etməməsinin başqa səbəbi milli mentalitetdən gələn mənfi cəhətdir. Bizim xalq eqoist xalqdır, əksər insanlarımız demir ki, ümumi işimizdir, edək. Hamı deyir, mənim problemimi həll elə. Deyirəm birləşin, ancaq o məsələ, birlik yoxdur bizdə. Hər kəs özünü fikirləşir, gedir bankla danışır. Onsuz da banklar heç bir güzəşt edən deyil".

**Ekspertin sözlərinə görə, yay aylarında borc haqqında məqaləni bütün hakimlərə poçtla göndərməyi və məsələnin ciddiliyini, vacibliyini çatdırmağı planlaşdırır**: "Həmçinin vətəndaşların özlərini mülfis elan etmələri haqqında da qanun yoxdur. O qanunu istəyirəm yayda araşdırıb hazırlayım. Bəlkə borclular o qanunun ətrafında birləşsinlər. Banklarla da mübarizə aparmaq daha asan olar. Düşünürəm ki, payızda vətəndaşlar kütləvi şəkildə məhkəmələrə müraciət edəcəklər. Çünki artıq gözləntilərinin gerçəkləşmədiyini anlayacaqlar, güzəşt olmadığını görəcəklər və banklar tərəfindən aldadıldıqları dəqiqləşəcək".

❑ **Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 127 (6448) 11 iyun 2016

# Prezident yeni kadr islahatlarına başladı

**İyunun 10-da prezident növbəti kadr islahatları aparıb. Belə ki, prezidentin imzaladığı sərəncamla Göyçay rayonu İcra Hakimiyyətinin başçısı Mübariz Ağayev tutduğu vəzifədən azad olunub.**

## Mehdi Səlimzadə Göyçayın icra başçısı təyin olundu; Mübariz Ağayev nazir müavini postuna gətirildi; ekspertlər bunu kadr dəyişikliyinin yeni mərhələsi kimi qiymətləndirir

Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə Mehdi Səlimzadə Göyçay rayonuna icra başçısı təyin edilib.

Mehdi İldırım oğlu Səlimzadə 1955-ci ildə anadan olub. Ali tibb və hüquqşünas təhsili var.

2003-cü ildə Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dövlət və bələdiyyə idarəetməsi fakültəsini bitirib.

1996-2000-cı illərdə Milli Məclisin Yerli özünüidarəetmə məsələləri üzrə Daimi Komissiyasında ekspert kimi çalışıb.

Bələdiyyə sisteminin inkişafına həsr olunan onlarla elmi-publisistik məqalənin və monoqrafiyanın müəllifidir.

2000-2003- cü illərdə Mərkəzi Seçki Komissiyasının üzvü, 2004-cü ildən Azərbaycan Bələdiyyə Qulluqçuları Həmkarlar İttifaqının təsis edilməsi ilə bağlı yaradılan təşkilat qrupun rəhbəri və komitənin ilk sədri seçilib.

Türk Dünyası Bələdiyyələr Birliyinin həmsədri kimi Azərbaycan bələdiyyə sistemini mütəmadi olaraq beynəlxalq tədbirlərdə layiqincə təmsil edib. Bir sıra dövlət mükafatları ilə təltif edilib.

2012-ci ildən prezidenti İlham Əliyevin sərəncamı ilə III dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsi verilib.


Mübariz Ağayev


Mehdi Səlimzadə

2004-cü ildən Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş mərkəzinin rəisi vəzifəsində çalışıb.

Göyçayın dünənə qədər icra başçısı olan Mübariz Ağayevə isə daha yüksək vəzifə verilib. Prezidentin müvafiq sərəncamı ilə o, Göyçayın icra başçısı vəzifəsindən azad edilərək kənd təsərrüfatı nazirinin müavini vəzifəsinə təyin edilib.

Unikal.org-a danışan M.Ağayev göstərdiyi etimada görə, prezident İlham Əliyevə təşəkkür edib.

Nəzərə çatdıraq ki, Mübariz Ağayev Göyçayla yanaşı, daha əvvəllər Mingəçevirin və Qubanın da icra başçısı olub.

***

Nəzərə çatdıraq ki, kadr və struktur islahatlarının növbəti mərhələsinin başlayacağı bağlı müsavat.com bir müddət öncə yazmışdı. Bu günlərdə sənədləşmə məsələlərinə dair bir sıra səlahiyyətlərin ASAN Xidmətə verilməsi, həmçinin, sərhəd keçid məntəqələrində DSX-nın səlahiyyətlərinin artırılması, elektron hökumətə keçidlə bağlı müvafiq sərəncamlar imzalanmasının ardınca kadr dəyişiklərinin başlaması islahatların kompleks xarakter ala biləcəyini düşünməyə əsas verir.

Burada bir məqamı da qeyd edək ki, ekspertlər "neft erası"nın bitməsindən sonra kənd təsərrüfatı sahəsinin inkişafına xüsusi diqqət ayrılacağı barədə təhlillərlə çıxış edirlər. Həmçinin, dövlət başçısı da bununla bağlı açıqlamalarında bildirib. Belə bir vaxtda icra başçısı işlədiyi dövrlərdə işgüzarlığı ilə seçilən Mübariz Ağayevin də məhz kənd təsərrüfatı nazirinin müavini postuna gətirilməsi bu prosesin tərkib hissəsi kimi qiymətləndirilir.

**Ekspertlər deyirlər ki, ölkədə kadr və struktur islahatları qaçılmazdır və qısa zamanda bu, daha geniş vüsət alacaq.**

❑ **E.MƏMMƏDLİ**

# Qidası miflər olan millətin "azadlığı"



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Öz əzablarından zövq alan, hətta onları mifləşdirən millətin adını bilməyən yəqin ki, yoxdur. Bu, əlbəttə ki, qonşu ermənilərdir. Bəla burasındadır ki, onlar təkcə öz əzablarından zövq almırlar, həm də qonşu xalqların dincliyini, hüzurunu, həyat ritmini pozmağa çalışırlar, onların da daima əzab-əziyyət içində yaşamasına nail olub bundan maniakal şəkildə həzz alırlar.**

"Əzabkeş erməni xalqı" deyiminin ikinci mühüm özəlliyi budur. Erməni mazoxizminin, əzablardan ləzzət almağın təzahürüdür ki, Azərbaycana qarşı torpaq iddiasının, Qarabağın işğalının ona yalnız səfalət və məhrumiyyətlər gətirdiyinə əmin olmaq üçün qonşulara 26 il bəs eləməyib.

Dünyada ən bədbəxt millətlər şəksiz ki, köləliklə azadlığın, azadlıqla işğalın yerini səhv salan, təcavüzə, istilaya azadlıq donu biçənlərdir. Onların hamısı it günündə yaşayır - erməni də, rusu da. Çünki nə üstündə bərqərar olduqları torpaq özlərininkidir, nə də qürrələndikləri azadlıq gerçək bir azadlıqdır.

Millət də insan kimidir: yadların yox, yalnız özünün biçimində gözəldir, təbiidir, urvatlıdır. İnsanlar kimi bir millətin azadlığı da başqa millətin azadlığı başlayan yerdə bitir. Əfsus ki, bu elementar dünyəvi norma XXI əsrdə də ermənilərə çatmır. Əks halda, Şuşanın işğalına "Şuşanın azad edilməsi, bəşəri cinayət olan Xocalı soyqırımına "Xocalının təmizlənməsi", Ermənistanın Rusiyadan total asılılığına, faktiki, kölə statusuna isə "müstəqillik" deməzdilər.

Özü də bu, tək erməni toplumuna xas təfəkkür tərzi deyil. Ermənistanın hakim qüvvəsi, siyasi elitası da eyni cür düşünür. Millətin bədbəxtçiliyi də artıq deyildiyi kimi, azadlıqla köləliyi, işğalla azadlığı, bəşəri cinayətlə haqq-ədalət anlayışlarını qarışdırmasından başlayır.

Aydındır ki, öz azadlığının qədrini bilməyən, bütövlükdə azadlıq nə olduğunu bilməyən bir toplum üçün qonşu xalqları azadlığı da önəm kəsb edə bilməz. Biz məhz belə təfəkkürcə geri, məkrli bir xalqla qonşuyuq. Qarabağ məsələsinin uzanmasının tək səbəbi bu - normaldan uzaq xəstə erməni təfəkkürü, xəstə erməni toplumu.

Haramın, yalanın, istilaçılığın dövlət siyasətinə çevrildiyi ölkənin əhalisi isə rifahda ola bilməz. İşğalçı ermənilərin bugünkü durumuna baxmaq yetər. Maraqlıdır ki, bunu özləri də gizlətmirlər, dostları da etiraf edirlər.

"Qarabağda ermənilər acından ölür". Bunu 2015-ci ildə işğal altındakı Dağlıq Qarabağa səfər edərək, orada özünə biznes yaratmağa çalışan rusiyalı qalmaqallı iş adamı German Sterliqov Ukraynan telekanalına müsahibəsində deyib. O, Dağlıq Qarabağdakı sadə ermənilərə yaşamaq üçün heç nə verilmədiyini bildirib.

Sitat: "Onlara sadəcə, ölməmək üçün bəs edəcək qədər pul verirlər. Orada kənd təsərrüfatının inkişafı üçün yaxşı şərait var, amma insanlara əkib-becərməyə imkan vermirlər". Sterliqov deyib ki, Qarabağ ermənilərinin əksəriyyəti oradan qaçır. "Belə davam etsə, Qarabağda erməni qalmayacaq və azərbaycanlılar döyüşmədən boş qalmış ərazilərə geri qayıdacaqlar".

Təəccüblü heç nə yoxdur. Çünki ermənilər əslində illərdir arzuladıqlarını alıb, istəyində olduqları mazoxist həyata qovuşublar. Üçüncü on illikdir miflərlə qidalanan, yaxud qidalandırılmağa razı olan bir millətin sonu necə olmalı idi ki?

**Sizə mif lazımdırmı? Yaşayın, nə qədər istəyirsiniz. Əgər buna yaşamaq, həm də azad yaşamaq demək mümkünsə...**



# "125-lər"in keçmiş üzvləri seçkidə İqbal Ağazadəni dəstəkləyirmi...

**"125-lər" siyasi klubu sədrinin sabiq müavini, hüquqşünas Günel Səfərova öz facebook səhifəsində 90 saylı Ağdaş seçki dairəsi üzrə Milli Məclisə keçiriləcək təkrar seçkilərdə dəstəklədiyi namizədin adını açıqladı. Lakin o, həmin dairədən namizəd olan Ümid Partiyasının sədri İqbal Ağazadə deyil, Yeni Azərbaycan Partiyasının namizədi Cavid Osmanov oldu.**

*Bəs "125-lər"də bir zamanlar təmsil olunan digər üzvləri kimi dəstəkləyirlər?*

Məsələ ilə bağlı musavat.com-a danışan siyasi klubun sədr müavini **hərbi ekspert Üzeyir Cəfərov** bildirdi ki, o, İqbal Ağazadəni dəstəkləyir: "İqbal bəy Azərbaycanın tanınmış şəxslərindən, Qarabağ savaşının iştirakçılarından biridir. Mən onu dəstəkləyirəm. Hesab edirəm ki, Ağdaş camaatı İqbal bəyi seçərlərsə, uduzmazlar. Çünki İqbal Ağazadə həm savadlıdır, həm Qarabağ qazisidir, həm də insanlarla, sadə camaatla hər zaman yaxın olub. Düşünürəm ki, sonuncu parlament seçkilərində bəzi qüvvələr İqbal Ağazadənin haqqına girdilər. İndi təkrar seçkilərdə namizədliyini verib və şəxsən mən, istərdim ki, İqbal bəy kimi ağıllı, savadlı insan Milli Məclisdə təmsil olunsun".


**Üzeyir Cəfərov:**
"Ağdaş camaatı İqbal bəyi seçərlərsə, uduzmazlar"


**Tamilla Qulami:**
"Üzvlərimiz İqbal Ağazadəyə dəstək verirlər"

**"125-lər"in keçmiş sədri,tanınmış jurnalist İlhamiyyə Rza** isə aşağıdakıları söylədi:

"Seçki prosesi və mövzusu mənim üçün arxada qaldı. Heç bir şəkildə seçkilərlə maraqlanmıram. Xahiş edirəm ki, məndən keçmiş "125-lər"in başqanı ya da üzvü kimi fikir soruşmayasınız. O layihə sırf seçki üçün nəzərdə tutulmuş platforma idi. Seçki bitdi, nəticə isə əldə olunmadı. Odur ki, daha onun adından, nə keçmiş nə də ki, hazırkı üzv kimi danışmaq absurddur".

**90 saylı dairədən kimi dəstəkləməsinə gəlincə isə İ.Rza bildirdi ki, istədiyi tək məsələ kimliyindən asılı olmayaraq, deputatın xalqa gün ağlamasıdır:** "Millət vəkili təmsil etdiyi ərazinin və onun sakinlərinin qayğısına qalmayacaqsa, o vəkil deyil".

**"125"lər siyasi klubunun hazırkı sədr müavini Tamilla Qulami** isə bildirdi ki, İqbal Ağazadənin seçki kampaniyası uğurla davam etdirilir və klubun yeni üzvləri onlara dəstək olurlar: "Qapı-qapı kampaniyası" davam edir. İnsanlar artıq onlara qarşı edilən məlum təzyiqləri demək olar ki, ciddi qəbul etmirlər. Tam olaraq İqbal Ağazadəyə dəstək verəcəklərini bəyan edirlər. Hətta onlardan bəziləri qərargahımıza gələrək, dəstəklərini ifadə edirlər. "125-lər"ə gəlincə isə siyasi klubun yaxın zamanlarda məclisinin keçirilməsi nəzərdə tutulur. Bundan sonra yenidən sədr və müavinləri seçiləcək. Bu prosesin ardınca fəaliyyətimizə davam edəcəyik. Artıq 2020-ci ilin parlament seçkiləri ilə bağlı bizə qatılanlar da var. Yeni üzvlərimiz var. Həmin üzvlər də İqbal Ağazadəyə dəstək verirlər".

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 127 (6448) 11 iyun 2016

# Osmanlı imperatorluğunu qadınlar idarə edirmiş?

## 8 əsr mövcud olmuş imperatorluğun tarixi serial və fimlərdəki kimidirmi, türk padşahları qeyri-millətdən olan qadınlara nə üçün önəm veriblər?



**Sabir Rüstəmxanlı:** "Hər bir qadın hakimiyyətdə öz övladını görmək istəyirdi"

**Hazırda yayımı davam edən Türkiyənin "Kösəm Sultan" və bir müddət əvvəl başa çatan "Möhtəşəm yüz il" serialları təkcə qardaş ölkədə deyil, Azərbaycanda da maraqla izlənilir. Seriallardakı bəzi məqamlar geniş müzakirələr doğurur.**

Xüsusilə Osmanlı imperatorlarının həyat yoldaşlarının daha çox qeyri-millətlərə, əsasən, xristianlara aid olması əsas mövzulardan birinə çevrilib. Bu da idarəçilikdə qadınların rolunun yüksək olduğunu açıq şəkildə göstərir. Maraqlıdır ki, bu nüans təkcə serialda diqqət çəkmir. Belə ki, tarixi türk filmlərinin əksəriyyətində də eyni məqam izlənir.

Osmanlı tarixindən bəhs edən əsərlərdə də bu məsələ qabarıq şəkildə özünü büruzə verir. Məsələnin görünən tərəfi odur ki, 8 əsr mövcud olmuş qüdrətli türk imperatorluğunun padşahlarının həyat yoldaşları daha çox çin, rumin, yunan, serb və başqa xristian mənşəli xalqlara məxsus olublar. Təsadüfi deyil ki, tarixdə bir çox Osmanlı imperatorlarının ölümlərinə səbəb xristian mənşəli arvadları olub.

Sözsüz ki, Osmanlı şahlarının hərəmxanlarında təkcə xristianlara aid qadınlar olmayıb. Amma daha çox bu mənşəli qadınlar olub ki, bu da bütün tarix boyu müzakirələrə səbəb olub.

Onu da qeyd edək ki, tarixdən bəhs edən serial və filmlərdə təhrif olunma halları çox olur. Amma yuxarıda adlarını qeyd etdiyimiz türk seriallarında bu hallara bir o qədər də rast gəlinmir. Bu da izləyicilərin sayının çox olmasına səbəb olur.

Maraqlıdır, Osmanlı imperiyası serial və filmlərdə göründüyü kimimi olub? Türkiyə tarixinə yaxından bələd olan **Vətəndaş Həmrəyliyi Partiyasının sədri, xalq şairi Sabir Rüstəmxanlı** hesab edir ki, dövləti bir şəxs idarə etmir: "Avropa alimləri araşdırıblar ki, bu necə olur, bütün dünya gücləri Osmanlı imperatorluğuna qarşı mübarizə aparırlar, amma bu dövlət dağılmır. Əgər bu imperiyanı təkcə Avropadan gələn qadınlar idarə etsəydi, dövlət 5-10 ilə dağılardı. Orada bir sistem, qanun və ədalət var idi. Bütün tarixçilər bu imperatorluğun dağılmamasının səbəbini yalnız bir amillə qeyd edirdilər ki, buna səbəb türk xalqı olub. Orada qadınlar, sultanlar mühüm rol oynamayıblar. Savaşan xalq idi. Lazım olanda sultan və arvadlarını yerində oturdan türk xalqı idi. Doğrudur, bəlkə də Avropadan olan qadınlar olmasaydı, onlar türklərə üstdən-aşağı baxmasaydılar, bəzi siyasətlərini aparmasaydılar, imperatorluq daha çox mövcud olardı. Amma hər halda bu amil həlledici deyil. Burada əsas dövlətçilik sistemi və türk xalqı idi".

**S.Rüstəmxanlı Osmanlı şahlarının daha çox qeyri-millətdən qadınlara üstünlük verməsinə də münasibət bildirdi:** "Onların bir deyil, bir neçə qadını var idi. Bunu hərəmxanlardan görmək olurdu. Bu daha çox savaşlarla bağlı idi. Savaşlarda əsir götürdükləri qadınların gözəllərini hərəmxanlara seçirdilər. İstəyirdilər ki, övladları da bu xanımlardan olsun. Bir də qədimdən gələn bir adət-ənənə idi ki, yadellilərlə evlənmək və bu yolla əlaqələri möhkəmləndirmək. Bu hal bütün dünya imperiyalarına aid idi. Çünki bununla işğal altında olan ölkələri idarə etmək, eləcə də, digər dövlətlər əlaqələr yaratmaq asan olurdu. Şübhəsiz ki, saraylarda baş verən daxili çəkişmələrin, narazılıqların baş verməsinə bəzən analar, arvadlar səbəb olurdu. Çünki övladı olan hər bir qadın hakimiyyətdə öz övladını görmək istəyirdi. Nəticədə qanlı savaşlar yaşanırdı. Bütün bu narazılıqlar daha çox hakimiyyətlə bağlı idi".

❑ **Cavanşir ABBASLI**

# İran Ermənistana niyə qucaq açdı?

## Elxan Şahinoğlu: "İranın Ermənistanla əlaqələrini genişləndirməkdə məqsədi iqtisadi qazanc yox, Azərbaycan əleyhinə Ermənistanla siyasi ittifaqı gücləndirməkdir"

**Hər dəfə İran-Ermənistan münasibətlərində müşahidə olunan yaxınlaşma meyllərinə Azərbaycandan haqlı olaraq sərt münasibət sergilənir və bu dəfə də istisna olmadı. Belə ki, Ermənistanın xarici işlər naziri Edvard Nalbəndyanın Tehrana rəsmi səfəri zamanı iranlı həmkarı Məhəmməd Cavad Zərifi ilə çox məhrəm görüşü zamanı dostluq və qardaşlıqdan bəhs olunması, üstəlik iki ölkə arasında viza rejiminin ləğvi barədə razılığa gəlinməsi Bakı-Tehran münasibətlərinə xələl gətirən amil kimi dəyərləndirilir.**

Azərbaycan hər zaman dostluq və qonşuluq prinsiplərinə sadiq qalaraq İranla normal münasibətlərə üstünlük verdiyi halda, İran işğalçı ölkəyə qucaq açır. Hələ 90-cı illərdə keçmiş prezident Levon Ter-Petrosyan etiraf etmişdi ki, Qarabağ savaşı dövründə İran Ermənistanın nəfəsliyi funksiyasını yerinə yetirməsəydi, onun ölkəsi ağır vəziyyətə düşəcəkdi. Əgər Rusiya işğalçı Ermənistanı silah-sursatla təmin edibsə, müsəlman İran dövləti də digər müsəlman ölkənin ərazilərini işğal edən, məscidlərini dağıdan bir ölkəyə qaz verib, onun boğulmaması üçün nəfəslik, "oksigen balonu" funksiyasını oynayıb...

Xüsusilə də aprel döyüşlərindən, Ermənistanın növbəti azğınlığından sonra Tehranın bu davranışları anlaşılan deyil. Üstəlik, Azərbaycan və İran arasında dəmir yolu xəttinin birləşdirilməsi ilə bağlı böyük bir layihə həyata keçirilir, körpü tikilir, Azərbaycan prezidentinin İrana səfərinin ardınca prezident Ruhaninin Bakıya səfəri gözlənilir. Ancaq bu arada xəbər yayılıb ki, İran prezidentinin Bakıdan öncə İrəvana səfəri planlaşdırılıb. Belə bir situasiyada İranın ermənilərə qucaq açması iki müsəlman qonşunun münasibətlərində çat yarada bilər.

**Politoloq Elxan Şahinoğlu** "Yeni Müsavat"a açıqlamasında xatırlatdı ki, Qərb vaxtilə İrana qarşı sanksiyalar tətbiq etdikdə rəsmi Bakı bu qərarın əleyhinə çıxdı: "İranda bəziləri şübhələnirdi ki, guya ABŞ və İsrail Azərbaycan torpaqlarından İrana qarşı istifadə edə bilər. Azərbaycan hakimiyyəti bu iddiaları da rədd etdi, üstəlik bir daha bəyanladı ki, üçüncü ölkələrin Azərbaycan ərazisindən İrana qarşı istifadəsinə heç bir halda icazə verilməyəcək. Qərb İrana qarşı sanksiyalar tətbiq etdiyi illərdə belə Azərbaycan qonşu ölkə ilə əməkdaşlıqdan çəkinmirdi. Bu dəfə isə ABŞ diplomatik kanallarla Azərbaycan hakimiyyətinə təsir edirdi ki, İran Bakıdakı bankların imkanlarından istifadə etməsin. Yeni sanksiya illərində Azərbaycan İranla əməkdaşlığa görə Vaşinqtonun təzyiqi ilə üzləşib. İrana qarşı nüvə məsələsi ilə bağlı sanksiyalar aradan qaldırılandan sonra Azərbaycan-İran əməkdaşlığının genişləndirilməsi barədə diskussiyalar gücləndi..."

**Politoloq qeyd etdi ki, ancaq belə bir ərəfədə Tehran qəfil Ermənistanla əlaqələri intensivləşdirməyə qərar verib:** "Əvvəlcə Ermənistanın xarici işlər naziri Edvard Nalbəndyan İrana dəvət edildi, viza anlaşması imzalandı, hazırda isə İran prezidenti Həsən Ruhaninin Ermənistana səfərə hazırlaşdığı açıqlanıb. Tehranın Ermənistan siyasəti yenidən Azərbaycanın hakimiyyət və ekspert dairələrində ciddi suallar yaradıb. Ermənistan kasıb ölkədir. Aydındır ki, İran Azərbaycandan fərqli olaraq Ermənistanla əməkdaşlıqdan iqtisadi qazanc əldə edə bilməyəcək. Azərbaycanla İran arasındakı layihələrdə Azərbaycan öz hissəsini, payını maliyyələşdirir, ortaq çalışmalara kreditlər ayıra bilir. Bunların heç birini Ermənistan edə bilmir. Ermənistan öz ərazisində hansısa layihəni reallaşdırmaq üçün xarici ölkələrdən vəsait axtarır".



**E.Şahinoğlu bildirdi ki, əgər İran Ermənistan ərazisində iri müəssisə yaratmaq istəsə, Ermənistana kredit ayırmaq məcburiyyətində qalacaq:** "Deməк, İranın Ermənistanla əlaqələrini genişləndirməkdə məqsədi iqtisadi qazanc yox, Azərbaycan əleyhinə Ermənistanla siyasi ittifaqı gücləndirməkdir. Halbuki, son zamanlar İranın bəzi rəsmiləri və tanınmış din xadimləri Dağlıq Qarabağ məsələsində Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiklərini vurğulayırdılar. Bu açıqlamalar Azərbaycanın siyasi dairələrində müsbət qarşılandı, düşünüldü ki, İranın siyasətində müsbət dəyişikliklər var. Ancaq Tehranın sonrakı addımlar göstərdi ki, İran hakimiyyətinin siyasətində dəyişiklik yoxdur. Tehran edən Ermənistanı isə "dost dövlət" adlandırır. Azərbaycanın Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bir neçə gün əvvəl Tehrana səfər etmişdi. Mübariz Qurbanlı iranlı rəsmilərin və din xadimlərin diqqətinə Azərbaycanın işğal altındakı torpaqlarında məscidlər dağıdılması faktlarını çatdırdı. Bu məsələyə də İran rəsmilərindən və din xadimlərindən heç bir reaksiya yoxdur. İran prezidentinin İrəvana səfəri yalnız Azərbaycanda deyil, İranda yaşayan azərbaycanlılar arasında da etirazla qarşılanacaq. İranın Təbriz və digər şəhərlərində küçə yürüşlərinin keçirilməsi də mümkündür. Əlbəttə, rəsmi Bakı Tehranla əlaqələrinə davam etməli, nəqliyyat layihələrini reallaşdırmalıdır. Ancaq rəsmi Bakı İranın Ermənistanla əməkdaşlığına cavab olaraq Türkiyə və Qərb ölkələri ilə təhlükəsizlik sahəsində əməkdaşlığını daha da genişləndirməlidir. Azərbaycan prezidenti ayrıca, Həsən Ruhaninin işğalçı Ermənistana səfərinə cavab olaraq İsrailə rəsmi səfərə getməli və bu ölkədə Azərbaycan səfirliyinin açılması sürətləndirməlidir".

Siyasi təhlilçi Eynulla Fətullayev isə özünün müəllif yazısında bu mövzudan bəhs edib: "Ruhani ilə görüşdə Nalbandyanın bəyanatında ən paradoksal və qıcıq doğuran bilirəvvəlkitək bölgədə güclü və inkişaf edən Azərbaycanın varlığından ehtiyat edir. Əks halda Qüds məsələsində ümumislam mövqeyindən çıxış edən Tehran müsəlman Azərbaycan torpaqlarının işğalına da ümumislam mövqeyindən yanaşmalıdı. Qüdsün işğalına görə İsraili düşmən elan edən Tehran Dağlıq Qarabağı işğal sinizmi nədir? Erməni nazir açıq şəkildə İrana Qarabağ məsələsindəki mövqeyinə görə minnətdarlıq etdi. Sual olunur, erməni nazirin digər ölkənin prezidentinə hansı halda minnətdarlığını bildirdiyini - həm Azərbaycan ictimaiyyəti, həm də ölkəmizin hakimiyyətiçox yaxşı anlayırıq". Müəllifin fikrincə, İran seçimini edib: "Bu ölkənin hökuməti Qarabağ məsələsinə görə əlləri minlərlə azərbaycanlının qanına batmış Sərkisyanı tamamilə qane edən mövqe sergiləyir. İndi isə başqa suala keçək - Azərbaycanın siyasətində İranı nə narazı salıb? Tehran nədən narazıdır?! Son illərdə İran Azərbaycanı "sionist rejim"lə əməkdaşlıqda günahlandırırdı ki, bu deyim altında ABŞ və İsrail nəzərdə tutulur. Bu "sionist rejim"in qanadlarından biri ilə İran siyasi barışığa gəlib. ABŞ-ı tez-tələsik İblisin "əqrəba"sı siyahısından çıxarılıb. Ancaq İsraillə düşmənçilik davam edir. O İsraillə ki, ən çətin vaxtında azərbaycanlı şiələrə ən müasir silahları verir, erməni işğalını pisləyir, Qarabağın azad olunmasını və İran hökumətinin dostu olduğu Sarkisyan ordusunun bu ərazilərdən şərtsiz çıxarılmasını tələb edir. Ermənistanın apreldəki naqis hücumu və azərbaycanlı şiələrin öldürülməsindən sonra Həsən Ruhani Sarkisyana dostluq əli uzadır. "Sionist rejim"in başçısı Binyamin Netanyahu isə bəyan edir ki, Azərbaycana səfər edəcək. Ən adi məntiq belə diktə edir ki, bu vəziyyətdə kim dost, kim düşməndir! Əgər Ruhani İrəvana gedərək Sarkisyanın şiələrin qanına bulaşmış əlini sıxmağa hazırdırsa, Azərbaycan prezidenti İlham Əliyev, nəhayət, yekun qərar verməli və İsrailə tarixi səfər etməlidir. Əlbəttə ki, bu səfər çərçivəsində Qüdsdə Azərbaycan səfirliyini təntənəli şəkildə açmaq şərtilə"...

**Hələlik rəsmi Bakıdan İran-Ermənistan münasibətlərinə hər hansı münasibət bildirilməyib. Adətən, Bakı bu kimi məsələlərə soyuqqanlı yanaşmağa və iki dövlətin arasındakı əlaqələri şərh etməməyə çalışır. Ancaq işğalçıya dəstək verilməsi şübhəsiz ki, Azərbaycan hökumətini də ciddi şəkildə narahat edir.**

❑ **E.PAŞASOY**

YENİ MÜSAVAT
N 127 (6448) 11 iyun 2016

# Müxalifət Siyavuş Novruzova mitinqlə yox, sözlə cavab verdi

## Demokratik düşərgə təmsilçiləri aksiya keçirilməməsinin səbəblərini izah etdilər

**Yeni Azərbaycan Partiyası (YAP) icra katibinin müavini, Milli Məclisin komitə sədri Siyavuş Novruzov bildirib ki, Azərbaycanda müxalifətin mitinq keçirməməsinin səbəbi sosial baza və elektoratların olmamasıdır. Ən aktiv proseslər seçki dövründə olur, ancaq ötən seçkilərdə heç bir partiya 300 nəfərdən artıq adam toplaya bilmədi: “Mitinq keçirilməsi üçün ayrılan yer əhalinin sıx yaşadığı məkandır. Bütün bunlara baxmayaraq, mitinqdə iştirak edən olmur. Yəni sosial baza yoxdur, ona görə də müxtəlif bəhanələr gətirirlər. Hakimiyyət aksiyada iştirak edənlərə heç bir təzyiq göstərmir. Azərbaycanda sərbəst toplaşmaq azadlığı tam təmin olunur. Müxalifətin sosial bazası olmadığına görə bu cür bəhanələr gətirirlər”.**


Siyavuş Novruzov


Elman Fəttah


Əli Əliyev

Siyasi ekspertlər isə hesab edir ki, Siyavuş Novruzovun dediklərinin əsaslı olub-olmadığını müxalifət istəsə mitinq keçirməklə sübuta yetirə bilər.

*Bəs müxalifət əsl vəziyyətin necə olduğunu nümayiş etdirmək üçün mitinq keçirə bilərmi? Mitinqlərə yetərli sayda qatılım olmaması nə ilə bağlıdır?*

**Müsavat Partiyası başqanının müavini Elman Fəttah** bildirdi ki, Siyavuş Novruzov şakərinə uyğun olaraq əsassız danışır: “Rejim sərbəst toplaşmaq azadlığını faktiki olaraq ləğv edib. Ötən il Müsavat Partiyasının yürüş-mitinqinin qanunsuz olaraq qadağan edilməsi haqda məhkəmə şikayəti artıq Avropa Məhkəməsindədir. Ümumilikdə hal-hazırda rejimin sərbəst toplaşma azadlığını qadağan etməsinə dair 3 şikayətimiz üzrə Avropa Məhkəməsi kommunikasiyanı yekunlaşdırıb qərar mərhələsindədir. Kütləvi aksiyalarda iştirak etdiyi üçün qanunsuz saxlanılıb cərimələrə məruz qoyulan insanlar var ki, bu məsələ ilə bağlı da Avropa Məhkəməsinə şikayətlər göndərilib. Siyavuş Novruzov deputat kimi hökumət qarşısında bu məsələni qaldırmalıdır ki, sərbəst toplaşmaq hüququnun pozulmasına görə Azərbaycan dövləti sistemli cərimələrə məruz qalır, buna son qoyulması üçün sərbəst toplaşmaq azadlığı bərpa edilsin, aksiyalarda iştirak edənlər cərimələrə məruz qalmasın”.

10-a yaxın partiyanı birləşdirən **Müxalifətin Antiböhran Koalisiyasının üzvü, VİP sədri Əli Əliyev** isə bildirdi ki, Azərbaycanda son dövrlər keçirilən kütləvi tədbirlərin çoxsaylı olmadığı bir faktdır. Son kütləvi tədbir cəhdləri AXCP və Müsavat tərəfindən olub. Həqiqətən də 300-500 nəfər iştirakçı Azərbaycan mitinq standartları üçün aşağı göstəricidir. Bunu adı çəkilən təşkilatların subyektiv passivinə qismən aid etmək olar. Lakin məsələnin obyektiv tərəfləri də vardır: “Belə ki, bizdə yaradılmış siyasi reallıqlarda insanların fikrini azad ifadə etmək qadağası qeyri-rəsmi şəkildə mövcuddur. Bunu etmək üçün son 23 ildə iqtidar zaman-zaman cəmiyyət üçün "qurbanlıq" siyasi məhbuslar istehsal edir. Müxalifətdə duran, fərqli fikir daşıyıcıları karyeradan, biznesdən, sərbəst hərəkət imkanlarından məhrum edilib, ölkədən siyasi fəal kəsimin köç etməsinə məcburi şərait yaradılıb. Siyasi fəal insanların bu illər ərzində görk məqsədi daşıyan “inkvizisiyası” sıravi vətəndaşların siyasi fəallığına möhürünü vura bilib. Əlbəttə ki, hörmətli Novruzov bu atmosferi YAP-ın qələbəsi hesab edə bilər. Bu qələbədirsə də, “Pirr qələbəsidir”. Azərbaycanda mövcud siyasi münasibətlər sistemində formal xarakter daşıyan azadlıqlar, çəkindikləri mərkəzlərə hesabat məqsədi güdür. Eyni məqsədli aksiya siyasi məhbusların qismən azad edilməsidir. Yaxşı ki, hakimiyyət daxilində hamı ortodoksal düşüncəyə malik deyil. Siyavuş Novruzovun nəzərinə çatdırım ki, avtoritar rejimlərin heç birində əhali mitinqlərə, etirazlara həvəsli olmur. SSRİ-də də belə etiraz tədbirləri görünmürdü. Hətta sosialist düşərgəsində də belə mitinqləri görmürdük. “Ərəb baharı”na qədər də oralarda heç kəs küçələrdə etiraz etmirdi. Belə durumun axırı nə olur? Tarixdən dərs çıxarmamaq müdriklik əlaməti deyil. Qarşılığında baxın, Yunanıstan xalqı illərdir meydanlardadır. Son illərdə etiraz dalğası Macarıstan, Portuqaliya, İspaniyanı sınağa çəkib. Bu gün başlayacaq Avropa birinciliyinə ev sahibliyi edən Fransanın bütün şəhərlərini tətil dalğası bürüyüb. Hətta qitə miqyaslı tədbirin pozulma təhlükəsi mövcuddur. Buna baxmayaraq, polis insanların ləyaqət hissinə hörmətlə yanaşır. Etirazın təşkilatçıları Həmkarlar təşkilatlarıdır. Siz təsəvvür edirsinizmi ki, bizdə Səttar Mehbalıyev zəhmətkeşlərin tələblərinə, aşağı həyat səviyyəsinə etirazlarının önündə dursun. Kütləvi tədbirlərin səviyyəsi dövlətin demokratikliyi ilə düz mütənasibdir".

**Göründüyü kimi, müsahiblərimiz müxalifətin mitinq keçirib-keçirməyəcəyi barədə konkret fikir bildirmədilər, ölkədə mitinqlər üçün şəraitin olmadığını sübut etməyə çalışdılar.**

❑ Etibar SEYİDAĞA

# “Sabiq nazirin məhkəməsi açıq keçirilməlidir”

## Müzəffər Baxış: “Vəli Əsgərovu ona görə qapalı məhkəmədə mühakimə edirlər ki...”


Vəli Əsgərov

**Naxçıvan Muxtar Respublikasının həbsdə olan sabiq milli təhlükəsizlik naziri, general-leytenant Vəli Əsgərovun cinayət işi üzrə hazırlıq iclası keçirilib. İclasda proses zamanı ailə, dövlət, kommersiya, şəxsi sirrlərə aid məlumatların ola biləcəyi əsas gətirilməklə prosesin qapalı keçirilməsi haqda qərar qəbul edilib. Bu qərarın qəbulu ictimiyyətdə birmənalı qarşılanmayıb. Sosial şəbəkələrdə V.Əsgərovun işi üzrə prosesin qapalı keçirilməsinin Naxçıvanda V.Əsgərovun əli ilə törədilən qanunsuzluqların ictimailəşməsinin önlənməsinə xidmət etdiyi haqda müzakirələr gedir. V.Əsgərovun işi üzrə prosesin qapalı keçirilməsi hazırda “MTN işi” üzrə həbsdə olan generalların və digərlərinin prosesinin də qapalı keçirilməsinə hazırlıq kimi qiymətləndirilir. MTN çetesinin ictimiyyətin gözləri qarşısında mühakiməsindən yayınma cəhdi kimi dəyərləndirilir.**

Naxçıvan məhkəməsinin V.Əsgərovun işi üzrə qəbul etdiyi qərar doğru, qanunidirmi? Həbsdə olan MTN çetesi üzvlərinin də qapalı şəraitdə mühakimə edilməsi hansı məqsədlərə xidmət edə bilər?

**“Hüquqi Dövlət” Araşdırmalar Mərkəzinin rəhbəri, tanınmış hüquqşünas Müzəffər Baxış** deyir ki, ailə sirri, dövlət sirri, kommersiya sirri, şəxsi sirr olduğu halda məhkəmənin hazırlıq iclasında qapalı və ya açıq keçirilməsi məsələsinə baxılır, müvafiq qərar qəbul olunur. M.Baxış deyir ki, Vəli Əsgərovun işində belə sirrlər ola bilər. Amma bu o demək deyil ki, məhkəmənin bütün prosesi qapalı keçirilməsi haqda qərar qəbul etməsi doğrudur: “Hazırlıq iclasında prosesin həmin sirrlərin müzakirələr zamanı ortaya çıxacağı ehtimalı olan hissələrdə qapalı keçirilməsinə qərar verilməliydi”.

**Tanınmış hüquqşünas prosesin qapalı keçirilməsinin məhkəmədə üzə çıxacaq qanunsuz əmrlərin verilməsi və digər məsələlərin ictimailəşməsinin qarşısının alınmasına xidmət etməsi qənaətində olduğunu söyləyib**: “İstənilən halda iş üzrə çıxarılan hökm açıq elan olunmalıdır. Milli Təhlükəsizlik və Naxçıvan Milli Təhlükəsizlik Nazirliklərinin hazırda həbsdə olan quldur əməkdaşlarının açıq-aşkar, ictimiyyətə bəlli olan çoxsaylı cinayətləri haqda məlumatlar var. Sahibkarların MTN-ə aparılması, döyülməsi, işgəncə verilməsi, külli miqdarda pullarının əlindən alınması, müxalifət nümayəndələrinə qarşı zorakılıqlara yol verilməsi haqda mətbuatda qalaq-qalaq yazılar dərc olunub. Bu səbəbdən də ictimaiyyətə bəlli olan, dövlət, kommersiya, ailə, şəxsi sirlər kateqoriyasına aid olmayan hissələrdə normal dövlətlərdə prosesin açıq keçirilməsi haqda qərar verilərdi. Çox təəssüf ki, Azərbaycanda hakimlərin qəbul etdikləri qərarlar əsaslandırılmır. Normal dövlətlərdə isə bu qəbulolunmazdır. Sivil ölkələrdə belə qanunsuz hərəkətlərə yol vermiş şəxsləri ictimaiyyət üçün açıq keçirilən məhkəmələrdə mühakimə edirlər. Buna görə edirlər ki, gələcəkdə akifçovdarovların, vəliəsgərovların və onlar kimi qanunsuzluqlara yol vermiş vəzifə daşıyıcılarının tutduqları vəzifələrə təyin ediləcək şəxslər nəticə çıxarsınlar. Onların etdikləri qanunsuzluqları təkrar etməsinlər. Yəni məhkəmənin maarifləndirici, xəbərdaredici funksiyası da var. Prosesin qapalı keçirilməsi bu funksiyaların ictimiyyətə verə biləcəyi tərbiyəvi mesajlarının qarşısının alınmasıdır. Əfsuslar ki, ölkəmiz qanunlarla deyil, göstərişlərlə idarə olunur. Məhkəmənin qapalı keçirilməsi göstərişini verənlərin zehnləri də o qədər geri qalıb ki, istəmirlər ki, Azərbaycan cəmiyyəti maariflənsin. Bu adamlara sərf edir ki, insanlar küt olsunlar. Onlara verilən sifarişləri yerinə yetirsinlər. "MTN işi" üzrə proses hissəvi qapalı keçirilməli, ümumilikdə isə açıq olmalıdır. Əgər bu şəxslərin törətdiyi cinayətlər, etdikləri quldurluqlar ictimiyyətdən gizlin saxlanacaqsa, gələcəkdə yeni akiflərin, eldarların, ilqarların və onlar kimi quldurların ortaya çıxmayacağına təminat yoxdur. Məhkəmə proseslərinin qapalı keçirilməsi sifariş edənlər bunu nəzərə almalıdırlar. Ən azından özlərinin bir daha belə şəxslərin qanunsuzluqları ilə üz-üzə qalmaması üçün bunu etməlidirlər, məhkəmələrin açıq keçirilməsinə mane olmamalıdırlar".

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 127 (6448) 11 iyun 2016

# Milli yolumuzun Ceyranbatan hissəsi



Zamin HACI
zaminhaci@gmail.com

**2008-ci ildə tikintisi başlanan Bakı-Quba beton avtomobil yolu var idi. 600 milyon dollara yaxın pulu orda basıb yedilər. Yol 2013-cü ildən dağılmağa başlamışdı, dünən baxıram, artıq sökə-sökə Ceyranbatana qədər gəlib çıxıblar. Bu yeyintiyə görə onlarla məmur zindana salınıb. Zarafat edirəm, qorxmayın. Bizdə dövlət əmlakını mənimsəmək şərəf sayılır. Adama hansısa "yubileyni" - 50, 60, 70, 80 yaşlarında "Şərəf", "Şöhrət" ordenləri yapışdırırlar, vəzifəsini daha da böyüdürlər. Çünki yol uzun müddət yerində qalsa, orda necə yeyintiyə yol verəsən? Nə qədər tez dağılsa yaxşıdır. Nə qədər imkan var, tələsib pul yığmaq, xarici hesablara qoymaq lazımdır. Bir də gördün Azərbaycan xalqı oyandı... Bəs necə, hətta daşdan da səs çıxır. Qobustanda özüm görmüşəm.**

Bax, həmin beton yolu çəkib-sökənlər dəstəsinin qabaqda gedənlərindən biri indi dəmir yolunu qayırmaqla məşğuldur, təzəlikcə açıqlama veribdir, deyir Bakı-Sumqayıt qatarında bir sərnişinin daşınma xərci 9 manatdır, ancaq biz bileti vətəndaşlarımıza 80 qəpiyə satırıq. İndi millət bu gopun şiddətindən heyrətə gəlibdir, çünki 9 manata taksi avtomobillə, yalan olmasın, Bakıdan Sumqayıta gedib hələ Ceyranbatana qayıtmaq olar, əlbəttə, Bakı-Quba yolunu qayıran şirkət əgər yolun hamısını hələ sökməyibdirsə. Bəs niyə uca millətimizə belə minnət qoyulur? Demək istəyirlər bax, 9 manat edərik, ətrafımızda daha sıx birləşin.

Ümumiyyətlə, Sumqayıt bölgəsində dövlətçilik hissləri həmişə güclü olmuşdur. Yadıma gəlir, bu qış orada kimsə şaiyə yaymışdı, guya doğum evində valideyni imtina edən uşaqlar satılır. Buna yerli hakimiyyət orqanlarından çox orijinal cavab verilmişdi: "Bizdə uşaqların qeyri-qanuni satılması halları olmayıb". Qanuni üsulla satırmışlar.

Sözgəlişi, bu yaxınlarda Hollandiyadan bir xəbər gəlmişdi, deyir orda təzə texnologiya kəşf olunub, avtomobil yolları... plastik materialdan düzəldiləcəkdir. Faktiki, əbədi yol kimi bir şeydir. Ağlasığmaz dərəcədə axmaq hərəkətdir. Bəs bu yol çökməsə, partlamasa, dağılmasa Hollandiya rəhbərliyinin ailəsi nə yeyib-içəcəkdir? Özləri cəhənnəmə, bizi də zibilə salırlar, bəzi zəhmətkeşlərimiz baxırlar, deyirlər niyə o əjdahadan burda olmasın, gəlin avropalaşaq, çağdaş texnologiyanı ölkəmizə gətirək, filan-beşməkan... Halbuki, bizim öz inkişaf yolumuz, öz beton yolumuz vardır! Öz milli adət-ənənələrimizdən uzaqlaşmayaq. Misal üçün, bizdə ata sözündə "Palaza bürün, elnən sürün" deyilir, niderlandlılarda isə deyilir: "Əldə olan bir quş, havada uçan on quşdan yaxşıdır". (Açığı, deyəsən elə bu hollandlar da bizdən köçüb gedənlərdir, ata sözləri ilə tanış olanda məndə buna ciddi inam yarandı. Hələ birinə də baxın: "Biri ölər, başqası çörək tapar". Vallah, əla fikirlərdir. Necə deyərlər, eşşəyimin qurd dayısı. Altda qalanın canı çıxsın. El üçün ağlayan göz kor olar).

Ancaq mən çox narahat olmuram, o plastik yol buralara gəlib çıxsa biz onu da söküb-tikməyin nəsə bir üsulunu taparıq. Bir də gördün kimsə yolun materialından kəsib bibisi oğlunun limonad sexinə butulka qayırmağa göndərdi, yerinə peyin doldurdu, yol çəkiləndən iki-üç il sonra peyinin içindən otlar qalxdı... Ya da bir neçə kilometri bazar zənbillərindən çəkdilər. Bizdə yeyinti texnologiyaları adlı ixtisas var, bəzi universitetlərdə rəsmi olaraq tədris edilir.

**Bu mənada, Naxçıvan MTN-in keçmiş rəisi, general Vəli müəllimin vəkili indi qəribə açıqlamalar verir. Deyir Vəli müəllimi həbsdə incidirlər, orta əsrlər qaydasında dustaq saxlanır və sairə. Burda "orta əsr" nə imiş, heç zad: sən demə, vəkilə generalla görüşdə kağız-qələm işlətməyə icazə verilmir, ancaq şifahi danışmağa qoyurlar. Rəhmətliyin oğlu, bizdə orta əsrlərdə heç vəkil var idimi? Şahın xoşuna gəlməyən adamı şaqqalayıb darvazadan asırdılar, kəlləsini paza taxırdılar, millət isə əl çalırdı. İndi insafsızlıq olar ölkəmizdə bu cür inkişafı görməmək... Bu milli yol deyil. Multikulturalizmimizə də ziddir. Azərbaycanı Hollandiya eləmək istəyən mənfur qüvvələrin işidir. O vaxtın Naxçıvan xanı ilə indiki Naxçıvan xanını müqayisə eləmək yersizdir.**

**İndi İks-İks əsrində yaşayırıq.**

# Kreml işğalçının səmasını da nəzarətə aldı

**2049-cı ilədək öz ərazisində Rusiyanın hərbi bazalasının saxlanmasına razılaşan, üstəlik, bütün yeraltı və yerüstü olan-olmazını Moskvanın ixtiyarına verən işğalçı Ermənistan sonuncu addımı da atdı - özünün hava hücumundan müdafiə sistemini Rusiyanın sərəncamına verdi. Düzdür, Rusiya rəhbərliyi bununla NATO ölkəsi olan Türkiyə ilə sərhədlərini möhkəmləndirdiyini iddia edir. Ancaq KTMT üzvü olan Ermənistanın müdafiəsi həm də Azərbaycana təhdid sayılır.**

## Təhlilçilər bu hadisəni Azərbaycana qarşı təhdid hesab edir; düşmən ölkədə isə yenidən anti-Rusiya oyununa start verilib...

**Politoloq Arzu Nağıyev**in "Yeni Müsavat"a dediyinə görə, Rusiya necə vaxtdır buna nail olmaq istəyirdi: "Daha doğrusu, hava məkanını özü qoruyurdu və sadəcə olaraq bunu leqallaşdırmaq istəyirdi və leqallaşdırdı da. Əsas məqsəd Türkiyə, daha doğrusu, NATO ilə sərhədin məhz Ermənistandan keçməsini əsas gətirir və regiona çoxsaylı hərbi hava müdafiəsində istifadə edilən kompleksləri yerləşdirirdi". Politoloqa görə, bir sıra qurğuların və onlara xidmət göstərəcək hərbi kontingentin Dağlıq Qarabağ ərazisinə göndəriləcəyi də istisna deyil: "Son məlum döyüşlər bir daha göstərdi ki, hava məkanının müdafiəsi əsas amillərdən biridir və qələbə əldə edilməsi üçün mühüm şərtdir. Bununla da Rusiya Ermənistanın Azərbaycana bu sahədə uduzduğunu dərk etdi. Məhz buna görə də ermənilərin iradı ilə üzləşdi. Yəni Rusiya tərəfindən hava məkanın birgə qorunması etiraf etməliyik ki, birbaşa Azərbaycana təhlükə törətməsə də, müsbət hal da deyil. Biz öz hava məkanımızı, o cümlədən Dağlıq Qarabağ və işğal olunan rayonlar da daxil olmaqla qorumağa qadirik. İnandırıcı deyil ki, savaş başlasa Rusiya birbaşa bu proseslərə müdaxilə edəcək, ancaq unutmaq lazım deyil ki, Ermənistan Rusiyanın vassalı və strateji tərəfdaşıdır, buna görə də ona dolayı yolla yardım göstərməsi də istisna deyil".



**Hərbi ekspert Üzeyir Cəfərov** isə qeyd etdi ki, əslində Rusiyanın Ermənistanın hava məkanını qoruması yenilik deyil: "Bir ölkənin ki, sərhədlərini, iqtisadiyyatını, müdafiəsini başqa bir ölkə nəzarət altına alıbsa, belə olan halda o, sadəcə formal bir dövlət sayılmalıdır. Həm də bu, o deməkdir ki, ruslar artıq Ermənistana tam etibar etmirlər və qorxurlar ki, son nəticədə onların Cənubi Qafqazın sonuncu dayanacağı, forpostu sayılan bu ölkədən də çıxarılması prosesinə start verilə bilər. Rəsmi Moskva çox narahatdır ki, yay aylarında başlaması daha çox real görünən növbəti silahlı toqquşma zamanı Ermənistanın Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə qoşunları qısa zamanda iflic vəziyyətə düşəcək. Ona görə də Rusiya tələsir ki, Ermənistanın hava məkanı ilə bağlı əlində hüquqi sənəd əldə etsin ki, sabah fors-major hadisələr zamanı bədnam qonşularımıza kömək adı ilə hansısa addımlar atsın. Əlbəttə ki, Qarabağ savaşına birbaşa müdaxilə imkanları əldə edə bilməsələr də, hardasa Ermənistanın işğalçı qüvvələrinə hava məkanları ilə bağlı bacardıqları köməyi göstərməyə cəhd edəcəklər. Həm Ermənistanın, həm də Rusiyanın Qarabağ məsələsinin çözülməsi ilə bağlı addımları və qəribə davranışları onu deməyə əsas verir ki, onlar bu yay tərəflər arasında növbəti, daha ciddi toqquşmanın qaçılmaz olacağına tam əmindirlər".

**Hərbi ekspert bir məqama da diqqət çəkdi:** "Ölkə başçısı cənab İlham Əliyev də Almaniyada həm Ermənistana, həm də onun havadarlarına, ümumilikdə ATƏT-ə, onun Minsk Qrupuna bir daha eşitdirdi ki, ateşkəs çox kövrək vəziyyətdədir. Bu dəfə Azərbaycan tərəfinin nə həvəsi olacaq kimisə eşitsin, nə də inamı qalmayacaq ki, Qarabağın azad edilməsi üçün atacağı sərt və ciddi addımlara görə kiməsə hesabat versin. Biz bu keçən illər ərzində kifayət qədər həm səbir, həm də dözüm nümayiş etdirdik".

**Ermənistanda isə Rusiya əleyhinə mitinq keçirilməsinə qərar verilib. Etiraz aksiyasına səbəb İrəvanın Moskva ilə Hava Hücumundan Müdafiə sistemlərinin birləşdirilməsinə dair bağlanan müqavilədir. Ermənistan əhalisi müqavilənin imzalanmasına qarşı çıxır. ANS-in məlumatına görə, Rusiya əleyhinə aksiya iyunun 13-nə planlaşdırılır. Etiraz aksiyası "Vətəndaş təşəbbüsü" qrupu tərəfindən təşkil edilir. Ermənistan parlamentinin qarşısında keçiriləcək aksiyada "Biz bu ölkənin sahibiyik" şüarları səsləndiriləcək. Təşəbbüs qrupunun bəyanatında deyilir:** "Hazırda müharibə təhlükəsi çox böyükdür. Amma müttəfiqliyə layiq olmayan və etibarsız Rusiya Azərbaycana silah satmağa davam edir. Ona görə də belə bir razılaşmanın təsdiqi xəyanətdir. Azərbaycana silah satan Rusiya şəxsi maraqlara əsaslanaraq Ermənistanı yenə müdafiə etməyəcək. Artıq bu gün Rusiyanın ekspertləri bildirirlər ki, Hava Hücumundan Müdafiə sistemlərinin istifadəsi haqqında qərarlar rəsmi Moskvanın komandirləri tərəfindən veriləcək".

Şübhəsiz ki, bu, növbəti erməni oyunudur. Ermənilər Qərbə xoş gəlmək üçün cəmiyyətdə "anti-Rusiya" ovqatının olması görüntüsünü yaradırlar, həm də paralel olaraq Rusiyadan əlavə güzəştlər qoparmağa cəhd göstərirlər. Bundan əvvəl də bənzər aksiyalar olmuşdu və nəticədə Rusiya ermənilər üçün qazın qiymətini aşağı salıb onları "sakitləşdirmişdi".

❑ **E.PAŞASOY**



# "Azərbaycan və Ermənistan prezidentlərinin görüşü çox vacibdir"

**"Dağlıq Qarabağ münaqişəsinin ilkin səbəbi həllini tapmasa, Azərbaycana qarşı təcavüz dayandırılmasa və Ermənistan qoşunları Azərbaycan ərazilərindən çıxarılmasa, heç kəs heç nəyə təminat verə bilməz".**

APA-nın məlumatına görə, bunu **Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu** deyib.

Səfirin sözlərinə görə, Azərbaycan xalqı, Azərbaycan prezidenti heç vaxt bir santimetr torpağı belə güzəştə getməyəcək: "Bunu hər kəs anlamalıdır - həm Ermənistan, həm dünya ictimaiyyəti, həm həmsədrlər... Azərbaycan prezidenti, XİN də bunu dəfələrlə bəyan edib. Amma bizi nə eşidirlər, nə də eşitmək istəyirlər. Aprel hadisələri göstərdi ki, "status-kvo" qəbuledilməzdir".

**Vyana görüşünə toxunan diplomat həmin görüşdə prezidentlərin iyun ayında yenidən danışıqlar aparmaq barədə razılığa gəldiyini xatırladıb:** "Görüşün yeri ilə bağlı müxtəlif təkliflər oldu. Ötən gün Rusiya XİN-in saytında Sankt-Peterburqda üçtərəfli görüşün olacağı barədə xəbər yerləşdirildi, lakin nəyə görəsə sonradan çıxarıldı. Mən görüşün harada, nə vaxt keçiriləcəyi barədə danışmağa səlahiyyətli deyiləm. Lakin düşünürəm ki, görüş iyunda baş tutacaq. Bu görüş bizim üçün çox vacibdir. Görüşdə Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı gələcək addımların vektorları müəyyənləşdiriləcək".

**Bir neçə il əvvəl azərbaycanlı ziyalıların Qarabağa səfər etdiklərini qeyd edən P.Bülbüloğlu sonradan bu formatın ermənilər tərəfindən pozulduğunu qeyd dib:** "Açıq bildirdilər ki, bu format onları qane etmir".

**Səfir son vaxtlar Ermənistan tərəfdən ünvanına səslənən tənqidlərə də cavab verib:** "Bilirəm ki, mənim çıxışlarım erməni tərəfini qane etmir. Amma onların tənqidləri məni daha da ruhlandırır. Qaranı ağ göstərməyə çalışırlar. Amma beynəlxalq hüquq, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, Avropa Şurasının qətnamələri mövcuddur. Bunlarda göstərilir ki, Ermənistan Azərbaycan ərazilərini işğal edib, o əraziləri qeyd-şərtsiz azad etməlidir. Azərbaycan həm ölkə, həm də beynəlxalq hüququn subyekti kimi haqlıdır. Erməni diplomatlar nə deyir desin, ədalət bərpa olunacaq, ərazimiz azad ediləcək".

YENİ MÜSAVAT
N 127 (6448) 11 iyun 2016

## Kreml yenidən masa arxasına keçir - əsas gözlənti

# Rusiyadan Azərbaycana qəfil Qarabağ jesti - erməni təşvişdə

### Moskvanın Azərbaycanı və Ermənistanı öz orbitində saxlamağa yönəlik siyasətində Bakıya verdiyi nisbi önəmin səbəbi; iyun görüşünə Azərbaycan daha uğurlu mövqe ilə gedir; Türkiyə amilinin prosesə pozitiv təsiri qayıdır...



**Rusiya Dağlıq Qarabağ məsələsində diplomatik fəallığı yenidən artırıb. Xəbər verildiyi kimi, bu ayın sonunda Rusiyada üç ölkə prezidenti - Vladimir Putin, İlham Əliyev və Serj Sərkisyan arasında üçtərəfli görüşün keçiriləcəyi haqda məlumat yayılıb. Doğrudur, V.Putinin mətbuat katibi Dmitri Peskov deyib ki, bu yöndə iş gedir və görüş istisna olunmur. ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik isə twitter səhifəsində görüşün iyunun sonunda olacağını əminliklə yazıb.**

İstənilən halda Kremlin Qarabağ məsələsində diplomatik fəallıq içində olduğu ortadadır. Belə bir fəallıq Qərbin təşəbbüskarlığının nəticəsi sayılan Vyana görüşündən sonra gözlənilən idi. Bir sıra siyasi analitiklər rəsmi Moskvanın Qarabağ məsələsində tezliklə hansısa formada "revanş" götürəcəyini və "əzələ nümayişi"nə çalışacağını təxmin edirdilər.

Təxminlər doğrulmaqdadır - Kreml təzədən Qarabağ masası arxasına keçir. Özü də belə görünür ki, Rusiya məsələdə öz dominantlığını təkcə diplomatik yöndən deyil, hərbi aspektlərdən də nümayiş etdirmək əzmindədir.

***

Moskva-İrəvan hərbi işbirliyinin güclənməsi buna sübutdur. Təsadüfi deyil ki, məhz bu arada Rusiya və Ermənistan birləşmiş Raket Əleyhinə Müdafiə Sistemi haqqında sazişi ratifikasiya edib. Bu da o anlama gəlir ki, Ermənistanın xarici sərhədləri kimi hava məkanı da bundan sonra Moskvanın nəzarətində olacaq.

Sənəd eyni zamanda Ermənistana Rusiyanın Raket Əleyhinə Müdafiə sistemindən geniş istifadə imkanı verəcək. Lakin sazişdə Dağlıq Qarabağın hava məkanının adı çəkilmir. Bu haqda danışan Ermənistan parlamentinin vitse-spikeri və hakim Respublika Partiyasının mətbuat katibi Eduard Şarmazonov belə də deyib ki, "sənəddə Qarabağla bağlı bir dənə də olsun hərf, vergül belə yoxdur".

**Məntiqlidir.** Çünki Dağlıq Qarabağ hüquqi cəhətdən Azərbaycan Respublikasının tərkib hissəsidir. Bununla da əslində Rusiya və onun satelliti Ermənistan faktiki surətdə Azərbaycanın ərazi bütövlüyünü tanımış olub. Rəsmi İrəvan çox istərdi ki *(məlumatlara görə, buna xeyli çalışıb da)*, sazişə Dağlıq Qarabağla bağlı da hansısa "hərf və ya vergül" salınsın, ancaq göründüyü kimi, istəkləri baş tutmayıb.

***

Bu, həm də o anlama gəlir ki, Azərbaycan öz ərazisində, beynəlxalq miqyasda tanınmış sərhədləri çərçivəsində istənilən vaxt işğalçı qüvvələrə qarşı antiterror əməliyyatı keçirməkdə sərbəstdir və həmin əməliyyatlara Rusiya və "Rusiyanın NATO-su" - KTMT qarışmayacaq. Təbii ki, ta o vaxta kimi ki, əməliyyatlar Ermənistan ərazisinə keçəcək.

Ayrı sözlə, Moskvanın Bakıya son Qarabağ jesti həm də istənilən an Azərbaycanın əli ilə "sözə baxmayan" işğalçı ölkənin cəzalandırıla biləcəyi haqda İrəvana bir mesajdır. Aprel döyüşləri bunun bariz anonsu hesab oluna bilər. O üzdən Ermənistanın təlaşı anlaşılandır. Bəzi bilgilərə görə, İrəvan heç olmasa, bu sazişdən sonra Rusiyadan 200 milyon dollarlıq kredit həcmində silah-sursatı nəhayət, ala biləcəyinə ümid edir...

***

Dağlıq Qarabağla bağlı Rusiyanın bu yanaşması, daha doğrusu, Bakıya Qarabağ jesti başqa mənalarda da anlaşılandır. Nəzərə almaq lazımdır ki, Azərbaycanla Rusiya arasında son illər ərzində strateji tərəfdaşlıq əlaqələri formalaşıb, Bakı Moskvanın mühüm silah alıcılırarından biridir, iqtisadi sahədə əməkdaşlığ genişlənir - bu ilin axırında istifadəyə veriləcək Şimal-Cənub dəhlizi buna əlavə sübutdur.

Rusiya həmçinin, Türkiyə faktoruna görə Azərbaycanla isti münasibətlər saxlamaq zorundadır. İş ondadır ki, "Su 24" insidentindən sonra Moskva müşahidə eləməmiş deyil ki, iki qardaş ölkə arasında hərbi və başqa sahələrdə əlaqələr nəinki Rusiyaya görə zəifləməyib, əskinə, güclənib *(4 günlük müharibədə Azərbaycanın qazandığı uğurda bu amil də var!)*, üstəlik, Azərbaycan-Türkiyə-Gürcüstan hərbi alyansının əsası qoyulub. Beləcə, Türkiyə faktorunun Qarabağ məsələsinə təsiri, faktiki, artıb.

Bundan başqa, Kreml Putinin Avrasiya layihələrinə Bakının qoşulacağına ümidini hələ itirməyib. Bir neçə gün öncə isə Rusiyanın Azərbaycandakı səfiri Vladimir Doroxin isə bəyan elədi ki, ölkəsi Azərbaycanın ərazi bütövlüyünü tanıyır və iki dövlət arasında əlaqələr yüksək səviyyədə inkişaf edir. Nəhayət, Azərbaycan-Rusiya əlaqələrinin yüksək səviyyədə olmasına habelə üç ölkə *(Azərbaycan, İran, Rusiya)* prezidentlərinin gözlənilən Bakı görüşü dəlalət edir.

***

**Sadalanan amillər prezidentlərin qarşıdakı iyun görüşünə Azərbaycanı daha uğurlu mövqe ilə aparır.**

❑ **Siyasət şöbəsi**

# Dünya və ABŞ əhalisi daha bir eksperimentə şahidlik edəcək

### Qara dərilinin ardınca qadın prezident Amerikaya uğur gətirəcəkmi...



Hillari Klinton

**ABŞ bu gün dünyada demokratiya və insan haqlarının əsas müdafiəçisi olan ölkə sayılır. Amma 50 il öncəyə qədər ABŞ-da insan haqlarından, demokratiyadan əsər-əlamət yox idi. Məşhur boksçu Məhəmməd Əli də ABŞ-da irqi ayrı-seçkiliyə qarşı savaşırdı. Müsbət hal odur ki, ABŞ-da irqi ayrı-seçkilik ortadan qaldırıldı, münasibətlər sistemi dəyişdi və elə bir mərhələyə gəlib çıxıldı ki, ABŞ-da qara dərili vətəndaş prezident oldu.**

Halbuki 1960-cı illərdə irqi ayrı seçkiliyə qarşı mübarizənin başında gedən Martin Lüter Kinqin Vaşinqtondakı məşhur çıxışında əsas cümlə belə idi ki, mən arzum odur bir gün mənim qızım ağ dərili qızla eyni sinifdə, eyni parta arxasında otursun. ABŞ nəinki bu arzunu yerinə yetirdi, hətta qara dərili gəldi ABŞ-ın prezidenti oldu. Bu həm də sanki bir eksperiment idi və 8 il sınaqdan keçirildi və müddət başa çatmaq üzrədir. Noyabr ayında ABŞ-da yeni prezident seçkiləri keçiriləcək. Prezidentliyə namizədlərdən biri məlumdur ki, keçmiş dövlət katibi Hillari Klintondur.

**Politoloq Elxan Şahinoğlu** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, dünya və ABŞ əhalisi böyük ehtimalla bu dəfə daha bir yeniliyə şahidlik edəbilər. Hillari Klinton seçilsə ABŞ tarixində ilk qadın prezident olacaq ki, bu da föqvəldövlətdə ikinci bir yeniliyin yaşanması deməkdir: "Hillari Klinton demokratlar içərisində prezidentliyə namizəd Barak Obamaya rəqib olanda Klinton demişdi ki, ya mən seçildim, ya Obama bunun məsələyə dəxli yoxdur, hansımız seçilsək ABŞ üçün yenilik olacaq. Həqiqətən də Obama seçilsəydi ABŞ tarixində ilk qara dərili prezident olacaqdı və oldu, Hillari Klinton seçilsəydi ABŞ tarixində ilk qadın prezident olacaqdı. Birinci yeniliyi artıq ABŞ arxada qoymaq üzrədir. İndi ikinci yeniliyə doğru sürətlə irəliləyir. Düzdür, Klintonun qarşısında Donald Tramp kimi güclü rəqib namizəd də var. Amma Barak Obamanın rəsmən televiziyada çıxış edib Hillari Klintonu dəstəklədiyini bəyan etməsi, Sandersin də Klintona dəstək verməsi onun Tramp üzərində qələbə çalmaq ehtimalını artıracaq. Sanders də güclü fiqurdur. Əgər o, geri çəkilib Klintona dəstək versə, mümkündür ki, Klinton onu vitse-prezident təyin etsin. Yəni əslində Hillari Klintonla Donald Tramp arasında mübarizədə kimin prezident seçiləcəyini vitse-prezidentlərin kim olacağı da müəyyənləşdirə bilər. Çünki keçən seçkilərdə Obama ilə Makkeyn mübarizə aparırdı. Makkeyn də güclü siyasi fiqurlardan biridir, Vyetnamda əsir olub. Amma o, çox yanlış bir adamı özünə vitse-prezident götürdüyün elan etməklə reytinqini aşağı saldı və nəticədə uduzdu. İndi Tramp və Klintonun kimi vitse-prezident irəli sürməsindən də çox şey asılıdır. Amma son rəy sorğuları göstərir ki, hələlik Hillari Klinton Donald Trampı üç faiz qabaqlayır. Xanım Klintonun şansı getdikcə artır. Qara dərili Obamanın ardınca qadın prezident seçiləcəksə, bu bir daha göstərəcək ki, ABŞ-da dəyərlər dəyişir".

**Qadının namizədin ABŞ-ın prezidenti olmasının bu ölkə və dünya üçün yaxşı, yoxsa pis olacağı barədə fərqli fikirlərə gəlincə, ekspert qeyd etdi ki, bu ailə qurmaq deyil ki, qadın ailədə baş sima olacaq və başqa cür idarə olunacaq:** "Bu, dövlətdir və ABŞ kimi oturuşmuş bir dövlətin başına qadının keçməsi də elə də böyük dəyişikliklərə gətirməyəcək. İkincisi, son 50 ilə diqqət etsək görərik ki, yüksək postda olan qadınlar heç də zəif olmayıblar. Britaniyanın baş naziri Marqarit Tetçer dəmir ledi ləqəbini almışdı, istənilən kişidən çox sərt idi. Argentina ilə müharibə apardı. Britaniya iqtisadi xaosa yuvarlanmışdı. Tetçer elə bir islahatlar apardı ki, hər şey dəyişdi. Bənəzir Bhutto nümunəsi də var. Madlen Olbrayt nümunəsi də var. Marqarit Tetçeri dəmir ledi adlandırırdılarsa, Madlen Olbraytı polad ledi adlandırırdılar. Bu adı Olbrayt ABŞ dövləti katibi kimi fəaliyyətində qazanmışdı, çox sərt sağ mərkəzçi siyasətçi idi. Hillari Klintonun üz quruluşu, siması, gülməsi insanda ilk baxışda belə təsəvvür yarada bilər ki, bu, bir qədər yumşaq siyasət yürüdəcək, amma düşünmürəm belə olsun. Digər tərəfdən də nəzərə alınmalıdır ki, ABŞ-da hər şeyi tək prezident həll eləmir. Prezidentlərin fərdi mövqeyi, üslubu siyasətə müəyyən koorektələr gətirsə də qərarların qəbulunda müşavirlərin, generalların böyük rolu olur. Hillari Klinton Barak Obamanın xarici siyasətdəki bir sıra yanlış siyasətini davam etdirəcəksə, deməli, qadın prezidentin dövründə də ABŞ-ın xarici siyasətində ciddi problemlər yaşana bilər".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 127 (6448) 11 iyun 2016



## Avropa çempionatına hansı kanaldan baxacaqsız?

### Rəyi soruşulanlar "xarici kanal" deyib yerli şərhçiləri yamanladılar

**Fransada keçiriləcək futbol üzrə Avropa çempionatını Azərbaycanda "CBC Sport" və İctimai Televiziya (İTV) yayımlayacaq. "CBC Sport" kanalının baş direktoru Volkan Üstün "Report"a verdiyi açıqlamaya görə, rəhbərlik etdiyi kanal qitə turnirinin 28 oyununu canlı olaraq azarkeşlərə təqdim edəcək: "Fransada ilk dəfə 24 komandanın iştirakı ilə Avropa çempionatı keçiriləcək. Avropa çempionatına xarici kanallardan izləməyə üstünlük verənlər isə matçlara aşağıdakı kanallar vasitəsi ilə baxa biləcəklər:**

Türkiyə "TRT 1" kanalı, Rusiya "Futbol 1", "Rossiya 1", "Naş sport" kanalları.

Bəs Azərbaycanda futbol azarkeşləri matçları daha çox hansı kanallardan izləyirlər?

Musavat.com-a mövzu ilə bağlı bir neçə ictimaiyyətdə tanınmış şəxslər fikir bildiriblər.

**Politoloq Şahin Cəfərli** məsələ ilə bağlı aşağıdakıları söylədi: "Bir futbol həvəskarı kimi mütləq izləyəcəyəm. Xarici kanala üstünlük verəcəyəm - ya Türkiyə, ya da Rusiya. Yerli şərhçilərə qulaq asıb, əsəblərimi korlamaq istəmirəm".

**Politoloq Elxan Şahinoğlu** isə hesab edir ki, artıq futbola baxmaq maraqlı deyil: "Gəncliyimdə bir futbol matçını buraxmazdım, dünya və Avropa çempionatlarını səbirsizliklə gözləyərdim. Ancaq indi açığı hər 90 dəqiqəlik matçı izləməyə səbrim çatmır. Futbolun özü də maraqsız olub. Maradona, Ziko kimiləri azdır. Futbol atlet oyunlarına bənzəyir, sürət texnikanı üstələyib. Məsələn, Çempionlar Liqasının finalını zorla izlədim. Çünki oyun maraqsız idi. Avropa çempionatında gəldikdə çalışacağam ən maraqlı oyunları izləyim".

**"Kaspi" qəzetinin baş redaktoru İlham Quliyev** heç bir kanalın xətrinə dəymək istəmir: "Bir futbol azarkeşi kimi Avropa çempionatını izləyəcəyəm. Allaha şükür, oyunları TV vasitəsilə izləmək üçün variantlar çoxdur. Həm yerli, həm Rusiya, həm də Türkiyə kanalları vasitəsilə oyunları izləmək imkanımız var. Yerli kanallardan oyunları İTV və "CBC Sport" nümayiş etdirəcək. Çalışacağam ki, ilk olaraq oyunları yerli kanallarımızdan izləyim. Amma təbii ki, şərhin keyfiyyətindən asılı olacaq. Alınmasa, Türkiyə və Rusiya kanalları variantı var. Mən adətən, Türkiyə yığmasının oyunlarını türk kanallarında izləməyə üstünlük verirəm. Digər oyunlara isə Rusiya kanalları vasitəsilə baxıram. Bu il də yəqin ki belə olacaq. Bir də "CBC Sport"un Parisdən birbaşa yayımlayacağı "Paris gündəliyi" verilişində Rüstəm Əfsərli və Doktor Ziyanı izləməyə çalışacağam".

**"Həftə içi" qəzetinin əməkdaşı Vüsal Tağıbəyli** bildirdi ki, futbola yerli kanallardan baxdığı zaman əsəbiləşir: "Ümumiyyətlə, bundan əvvəlki Avropa çempionatına da TRT-dən baxmışam. Azərbaycan kanalından baxanda sadəcə əsəb keçirirəm. Bir şərhçi oturdublar, şərhində primitiv söz yığınından başqa heç nə yoxdur. Qulaq asan kimi əmin olursan ki, çənəsi boş qalmasın deyə danışır. Sözləri darta-darta guya şərh verir, hansı ki, yeni hadisə baş verir stadionda. Yerli kanalda futbola baxmaqdansa oturub internetdən məlumat izləmək daha yaxşı olardı. Birmənalı şəkildə xarici kanallardan izləyəcəm".

❑ Əli RAİS

---

**Müğənni Şəbnəm Tovuzlu - Əsədovanın qadın alveri ittihamı ilə Milli Təhlükəsizlik Nazirliyinə aparılaraq orada saxlanılması geniş müzakirələrə səbəb olub. "Akif Çovdarov məşhur qadın müğənninin evini əlindən alıb" sərlövhəli yazıda Famil adlı bir iş adamının sifarişi ilə Akif Çovdarovun müğənnilərdən birini MTN-ə apararaq orada saxlaması haqda yazmışdıq. Lakin müğənninin kimliyini bəzi etik səbəblərdən açıq yazmamışdıq...**



# Adı "MTN işi"nə qarışan müğənni "Yeni Müsavat"a danışdı

## Şəbnəm Əsədova: "Famillə aramızda qısqanclıq mövzusunda mübahisə yaranmışdı, həll etdik"; Akif Çovdarovun ortağı Famil Xəlilov kimdir və müğənni ilə arasında mübahisənin gerçək səbəbi nə olub?

Həmin yazı dərc ediləndən sonra Qafqazinfo.az saytı MTN-ə aparılan müğənninin Şəbnəm Əsədova olduğu haqda xəbər yaydı. Bundan sonra müğənni, onun prodüseri əvvəlcə məlumatı yalanlamağa çalışdılar. Amma ümumilikdə müğənninin evinin əlindən alınmasını, Famil adlı şəxslə problemlər yaşamasını təsdiqlədilər.

Şəbnəm Əsədova "Yeni Müsavat"a bu haqda açıqlama verib. Müğənni deyib ki, xəbərlərdə adı hallanan Famil Xəlilov onun rəsmi nikahla əridir: "Bizim həm rəsmi nikah sənədimiz var, həm kəbinimiz. Yəni o adam mənim sevgilim deyil. Akif Çovdarla da əlaqəsi ola bilər. Çünki iş adamıdı, onun hər kəsli münasibətinin olması təbiidir. Sözügedən evə gəldikdə, biz o evi satmışıq, amma kiminsə onu mənim əlimdən zorla alması barədə deyilənlər tam yalandır".

"Sizi Akif Çovdarovun kabinetində Familin qarşısında diz çöküb ondan üzr istəməyə, sizə hədiyyə etdiyi evi geri qaytarmağa məcbur etmələri barədə yazılanlar doğrudurmu" sualına Ş.Əsədova belə cavab verdi: "Famil mənim ərimdi, mən niyə onun qarşısında diz çöküb yalvarım?! Bizim aramızda qısqanclıq mövzusunda mübahisə olmuşdu, o da ötüb keçdi. Bəzən 20 ilin ailələrinin arasında bu cür mübahisələr, narazılıqlar yaşanır. Buna görə hamını MTN-ə aparıb sorğu-sual etmirlər ki..."

Ş.Əsədova deyib ki, bu söz-söhbəti adını açıqlamaq istəmədiyi bir müğənni yayıb: "7-8 ay qabaq bu dedi-qodu yayıldı. Həmin müğənni bir saytda mənim haqqımda ağzına gələni yazdıqdı. Amma başını daşa döydü, bir gün sonra yazdıqdırığını pozdurdu. Çünki ona başa salındı ki, səhvdi, yalan yazdırır".

Famil Xəlilovun Azərbaycandan getdiyi haqda məlumat verən mçüğənnid eyib ki, hazırda əri Bakıdadı. "Famil heç yana getməyib. Azərbaycandadı, işləri ilə məşğuldur".

Ümumiyyətlə şou-biznes əhlinin kriminallaşmış hüquq-mühafizə orqanları yetkililəri ilə əlaqələri haqda çox yazılıb. Məsələn, bu gün ömürlük həbsdə olan Daxili İşlər Nazirliyi Baş Cinayət Axtarış İdarəsinin baş əməliyyat müvəkkili Hacı Məmmədovla bir çox müğənnilərin yaxşı əlaqələri olub. H.Məmmədovun Qusardakı "Qarabulaq" istirahət zonasının daimi qonaqlarına çevrilən müğənnilər sırasında bir çox tanınmışlar olub. Mərhum müğənni İlhamə Quliyevanın bir vaxtlar qoyun dərisindən gödəkçədə fotosu da məhz H.Məmmədovun təşkil etdiyi kef məclisində çəkilmişdi. Müğənni Mətanət İsgəndərlinin adı Beynəlxalq Universitetin prorektoru Mahir Abdullayevin MTN çetesi tərəfindən oğurlanması işində dəfələrlə hallanıb. Müğənni Röyanın "ekstazi işi"nə görə MTN-ə aparılması da hələ yaddaşlardan silinməyib. Müğənni Rəqsanənin ailə üzvlərinin qadın alverinə görə polis tərəfindən saxlanması xəbəri də uzaq keçmişin hadisəsi deyil.

### Müğənninin əri Famil kimdir?

Xanım müğənninin sponsoru olan (özünün iddiasına görə isə əri) Famil adlı şəxsin kimliyi də maraq doğurur. Bu səbəbdən də onun Akif Çovdarovla əlaqələrini də araşdırmaq qərarına gəldik.

Öyrəndik ki, Famil Qoçu oğlu Xəlilov Şəmkirin Şiştəpə kəndindəndir. Bakıya bir neçə il əvvəl Peterburqdan gəlib. Həmin vaxt onunla birgə Bakıya Zaur Rəfael oğlu İmamverdiyev də gəlib. Bakıda F.Xəlilovla Z.İmamverdiyev digər həmyerliləri, Şəmkirin Düyərli kəndindən olan Seymur İsayevlə biznes ortaqlığına qərar veriblər. "Evrostroy" tikinti şirkətində həmin vaxt S.İsayevlə Hacı Rafael Qarayev şərik olublar. S.İsayevin şirkətə həmyerlilərini şərik etmək istəməsi R.Qarayevin ciddi narazılığı ilə qarşılanıb. Aralarında mübahisə yaranıb. Kik-boks üzrə idman ustası olan R.Qarayevin şəriklikdən uzaqlaşdırmaq üçün başlanan, dava-dalaşla müşayiət olunan mübahisələr sonda S.İsayevin A.Çovdarova müraciəti ilə nəticələnib.

### MTN-ə sifarişlə apartdırılan təkcə Şəbnəm Əsədova olmayıb...

Qaynağımız bildirib ki, A.Çovdarov S.İsayevin tikinti şirkətini himayə edib. A.Çovdarovun MTN əməkdaşı olan Təhmasib adlı köməkçisi S.İsayevin Nərimanov rayonu, Həsən Əliyev küçəsindəki 7 mərtəbəli ofisinin daimi qonaqlarından olub. S.İsayev şəriki Hacı Rafael Qarayevi A.Çovdarova sifariş edəndən sonra onu vəhhabi təriqətinə pul ötürmək, bu təriqətin ardıcılı olmaq suçu ilə MTN-ə aparıblar. Bir neçə günlük çək-çevirdən sonra şiə məzhəbinin ardıcılı olan Hacı Rəfael Qarayevdən S.İsyevlə şəriklikdən imtina etmə haqda vəd və 150 min manat pul almaqla azad ediblər.

### Akif Çovdarovun həbsindən sonra Famil Xəlilovla Seymur İsayev Azərbaycanı tərk ediblər

Bundan sonra Şəbnəm Əsədovanın sponsoru Bakıda çoxmərtəbəli binalar tikən şirkətin şəriklərindən birinə çevrilə bilib. Famil Xəlilovla Seymur İsayev Akif Çovdarovun həbsindən sonra Azərbaycanı tərk ediblər. Onların Türkiyədə məskunlaşdıqları haqda da məlumat var. Bildirilir ki, S.İsayev Türkiyədə otelçiliklə məşğuldur, onun "Sipark" adlı oteli var. Şəriklərin Azərbaycanda qazanılan pullarla Dubayda çoxmərtəbəli bina tikintisi ilə məşğul olduqları və Azərbaycana dönmək fikirlərinin olmadığı haqda da məlumatlar var. Qaynağımızın verdiyi məlumatlardan belə aydın olur ki, bunun üçün şəriklərin ciddi əsasları var. Belə ki, onların başına gətirilən xoşagəlməz hallarla bir çox iş adamları da üz-üzə qalıblar. Şəriki Hacı Rəfael Qarayevdən savayı S.İsayevlə bu və ya digər formada narazılığı olan şəxslər Akif Çovdarovun idarəsinə aparılıb. Orada təhdid olunub. Bir çox şəxslərin isə "Evrostoy"un Həsən Əliyev küçəsindəki 7 mərtəbəli binanın zirzəmisinin "qonağı" olduqları da bildirilir.

*Famil Xəlilovun həmyerlisi Vaqif Məmmədovun MTN-ə aparılmasını kim sifariş verib?*

Akif Çovdarovun qanunsuzluqları ilə üzləşənlərdən biri də Şiştəpəli iş adamı Vaqif Məmmədov olub. Ötən sayımızda V.Məmmədovun başına gələnlər haqda yazmışdıq. Qaynağımız deyib ki, V.Məmmədov da vaxtilə Peterburqda bizneslə məşğul olub. Onun Famil Xəlilovla həmin dövrlərdən işgüzar münasibətləri olub. Bakıya gələndən sonra tikinti biznesi ilə məşğul olan V.Məmmədovu Şəmkirdəki məşhur "Həyat" şadlıq evində qızının toy mərasimindən çölə çağırılıb və başına torba keçirilməklə birbaşa Bakıya gətirilib. Akif Çovdarovla işbirliyində olan Famil Xəlilovun həmyerlisi Vaqif Məmmədovun yarım milyon manatı əlindən alınandan sonra onu azad ediblər. Bu məsələdə F.Xəlilovun rolunun nədən ibarət olması haqda konkret bilgiyə malik deyilik. Amma Akif Çovdarovla Famil Xəlilovun işbirliyində olması, Akif Çovdarovun F.Xəlilovun həmyerlisi V.Məmmədovu qızının toyundan oğurlatdıraraq yarım milyonunun əlindən alınması da müəyyən ehtimallar formalaşdırır...

### Şəbnəm Əsədovanın mənzilini əlindən alıb özünü "Edem"ə aparıblar

Ş.Əsədovaya gəlincə isə onun MTN-də 4 gün saxlanıldığı haqda iddia var. Həmin 4 gün ərzində müğənniyə Famil Xəlilovun bağışladığı, Keşlə bazarı ilə üz-üzə "Qafqaz" MTK-nın inşa etdiyi binadakı 3 otaqlı mənzildən zorla imtina etdiriblər. Həmin mənzili isə Famil Xəlilovun adamı Abbas Həsənlinin adına rəsmiləşdiriblər. Müğənniyə isə deyiblər ki, onu MTN-dən azad edilməsini xahiş edən Seymur İsayevdir. Guya Seymur İsayev onun MTN tərəfindən həbs edilməsini mətbuatda oxuyub və azad edilməsi üçün Akif Çovdarovdan xahiş edib. Maraqlı məqamlardan biri də budur ki, Şəbnəm Əsədova MTN-ə aparılandan dərhal sonra bəzi saytlarda onun qadın alverçisi kimi həbs edilməsi xəbəri yayılıb. Bu gün də həmin xəbər saytlarda qalmaqdadır. MTN-dən azad edilən Ş.Əsədova həmin vaxt "Edem" restoranında olan S.İsayevin hüzuruna aparılıb. Orada müğənni ən sərt şəkildə danlanıb...

❑ E.HÜSEYNOV

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Müharibədən qaçmaq üçün kritik fürsət ayı

## Prezidentlərin iyun görüşünün tarixi bəlli oldu, bəs sülh anlaşmasının tarixi? Rusiya Ermənistanın hava məkanını da nəzarətə götürdü, Dağlıq Qarabağ isə...

**Qarabağ münaqişəsi zonasında 22 illik atəşkəs dövründə ən genişmiqyaslı hərbi əməliyyatlar hesab olunan aprel döyüşlərindən iki aydan çox vaxt ötür. Əfsuslar olsun ki, bu müddət də problemin həllində dönüşə gətirmədi. Vyana görüşü hesaba alınmazsa, ötən zamanda konfliktlə bağlı ciddi heç bir diplomatik fəallıq özünü göstərmədi. Sanki atəşkəsi davamlı eləmək üçün Vyana danışıqları yetirmiş. Əlbəttə ki, belə deyil.**




Bu arada Azərbaycan, Rusiya və Ermənistan prezidentləri arasında iyunun sonunda Sankt-Peterbuqrda üçtərəfli görüşün keçiriləcəyi haqda məlumat yayılıb. Məlumatı Rusiya KİV-i ölkə XİN-dəki qaynağa istinadən yayıb. Xəbər doğrudursa, onda belə çıxır ki, prezidentlər - İlham Əliyev və Serj Sərkisyan arasında budəfəki birbaşa təmasın təşkilatçısı məhz Rusiya, prezident Vladimir Putin olacaq (Az öncə prezidentlərin görüşünün Parisdə ola biləcəyi xəbəri yayılmışdı. Daha sonra isə Çexiya prezidenti görüşü Praqada keçirməyi təklif eləmişdi).

Qarabağ konfliktinin həllində əsas məsuliyyətin zor-xoş Rusiyanın üzərinə qoyulduğunu nəzərə alsaq, təəccüblü deyil. Ancaq Moskva bu məsuliyyəti heç olmasa, indi - kritik aprel olaylarından sonra qədərincə dərk edirmi? Əsas sual da elə budur.

***

Doğrudur, bu gün münaqişə tərəflərinə ən güclü təsir imkanı olan yeganə dövlət Rusiya olaraq qalır. Ancaq iş də ondadır ki, indiyədək Azərbaycan və Ermənistan prezidentləri arasında baş tutmuş 20-dən çox birbaşa təmasın əksəriyyəti məhz Kremlin vasitəçiliyi ilə reallaşsa da, onların heç biri problemin həllini bir santimetr belə irəli aparmayıb. Bu dəfə necə, tilsim qırılacaqmı? Nəhayət, Moskva aprel döyüşlərindən nəticə çıxarıb nizamlama prosesinə ənənəvi imitasiyalı yanaşmaından əl çəkəcəkmi, "qollarını çirməyib" konfliktin həllinə girişəcəkmi?

Təəssüf ki, iyun ayının 1/3-i arxada qalsa da, suala pozitiv cavab yoxdur. Gerçək budur ki, prezidentlərin növbəti görüşünü hansısa formada əlamətdar eləmək üçün nə ATƏT-in Minsk Qrupu həmsədrləri səviyyəsində, nə də ikitərəfli formatlarda və ya Moskvanın təşəbbüsü ilə real və sanballı heç bir iş ortada yoxdur, görünmür.

Deməк, növbəti üçtərəfli görüş də formal bir hadisə kimi tarixə qovuşacaq və yenə də sırf Rusiyanın məsələdə dominant rolunun nümayişi ilə yadda qalacaq. Belə "əzələ nümayişləri" isə Qarabağ məsələsinə, regiona indiyədək yaxşı heç nə verməyib.

Əksinə, sülh danışıqlarında budəfəki fiasko, iyun fiaskosu daha böyük təhlükə vəd edir və münaqişə zonasında yeni müharibə riskinin kəskin artmasına gətirə bilər. Çünki aprel olayları çoxunda ümid yaradıb ki, münaqişə zonasında status-kvo nəhayət, tezliklə dəyişməlidir.

Bunu apreldəki 4 günlük müharibədən sonra Minsk Qrupu həmsədrləri də, ATƏT-in hazırkı sədri Almaniya da açıq biyan ediblər. O zaman status-kvonu dəyişməyə, danışıqlara real dinamika verməyə kim və ya nə mane olur? İndi də bunun zamanı deyilsə, bəs nə vaxt?

***

Bu arada isə Rusiya Güney Qafqazdakı yeganə forpostu Ermənistanla hərbi müttəfiqliyi genişləndirməkdə davam edir. Xəbər verildiyi kimi, Rusiya və Ermənistan birləşmiş Raket Əleyhinə Müdafiə Sistemi haqqında sazişi ratifikasiya edib. Bu da o anlama gəlir ki, Ermənistanın xarici sərhədləri kimi hava məkanı da bundan sonra Moskvanın nəzarətinə keçir. Sənəd eyni zamanda Ermənistana Rusiyanın Raket Əleyhinə Müdafiə sistemindən geniş istifadə imkanı verəcək.

Lakin sazişdə Dağlıq Qarabağın hava məkanının adı çəkilmir. Bu haqda danışan Ermənistan parlamentinin vitse-spikeri və hakim Respublika Partiyasının mətbuat katibi Eduard Şarmazonov jurnalistlərə açıqlamasında bildirib ki, "sənəddə Qarabağla bağlı bir dənə də olsun hərf, vergül yoxdur".

Əslində məntiqlidir. Çünki Dağlıq Qarabağ hüquqi cəhətdən Azərbaycan Respublikasının tərkib hissəsidir. Bununla da həm Rusiya, həm də elə Ermənistan faktiki surətdə Azərbaycanın ərazi bütövlüyünü tanımış olur. Bu, həm də o anlama gəlir ki, Azərbaycan öz ərazisində, özünün beynəlxalq miqyasda tanınmış sərhədləri çərçivəsində istənilən vaxt işğalçı qüvvələrə qarşı antiterror əməliyyatı keçirə bilər və həmin əməliyyatlara Rusiya, KTMT qarışmayacaq. Ta o vaxta kimi ki, əməliyyatlar Ermənistan ərazisinə keçəcək.

***

Qarabağ məsələsi ətrafındakı vəziyyətə Azərbaycan, Rusiya və İran prezidentlərinin gözlənilən üçtərəfli Bakı görüş kontekstində dəyərləndirənlər də az deyil. Siyasi analitiklər bu yöndə nikbin proqnozlar verməkdədirlər. Məsələn, **politoloq Fikrət Sadıqova** görə, Əliyev-Putin-Ruhani üçtərəfli görüşü faktiki olaraq labüddür və ilk növbədə regional təhlükəsizlik məsələləri, o sırada Qarabağa konflikti ilə bağlı olacaq (Axar.az).

"Bu isə ilk növbədə terror və ekstremizmə qarşı mübarizəni nəzərdə tutur. Çünki regionda vəziyyət olduqca gərgindir" - ekspert qeyd edib. O, görüşdə Qarabağ məsələsi də gündəlikdə olacağını söyləyib: "Üçtərəfli görüşdə həmçinin, Xəzərin statusu ilə bağlı müəyyən müzakirələr istisna edilmir. Bakı görüşündə Qarabağ məsələsinin özəlliklə müzakirə olunacağını qeyd etmək lazımdır. İnanmıram ki, Bakı bu məsələdə Tehranla hansısa bir razılığa gəlsin. Düzdür, İran Azərbaycanın ərazi bütövlüyünü tanıyır və bu, Azərbaycan üçün önəmli bir amildir. Ancaq İranın Ermənistanla da münasibətləri kifayət qədər geniş və yaxındır".

**Politoloq habelə təxmin edir ki, üç dövlət rəhbərinin görüşündə bir sıra məsələlərlə bağlı razılıq əldə oluna bilər**: "Azərbaycan Rusiya ilə strateji tərəfdaşdır. Bu mənada Rusiya və İran münasibətləri də çox yaxın formatda inkişaf edir. Üçlük bir sıra konkret layihələr, terrora qarşı mübarizə yolunda razılığa gələ bilərlər".

***

Bir şey dəqiqidir ki, Qarabağ münaqişəsi zonasında geniş miqyaslı hərbi əməliyyatların bərpası qonşu və region dövlətlərinin, o cümlədən Rusiya və İranın da marağında deyil. Ən azı ona görə ki, müharibə ənənəvi iqtisadi bağların və münasibətlərin qırılması və ya zəifləməsi, böyük iqtisadi və insani resursların tələb edilməsi deməkdir.

Müharibədən qaçmağın yolu isə sülh anlaşmasıdır. Prezidentlərin iyun görüşünün tarixi bəlli oldu, görəsən sülh anlaşmasının da tarixi bəlli olacaqmı?

## İrəvanın dostu: "Qarabağda ermənilər acından ölür"



**2015-ci ildə Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ ərazisinə səfər edərək, orada özünə biznes yaradan rusiyalı iş adamı German Sterliqov Ukraynanın RBK telekanalına müsahibəsində ermənilərin acından öldüyünü deyib (Publika.az)**

Məlumatlara görə, Sterliqov Dağlıq Qarabağda yaşayan sadə ermənilərə yaşamaq üçün heç nə verilmədiyini bildirib: "Onlara sadəcə, ölməmək üçün bəs edəcək qədər pul verirlər. Orada kənd təsərrüfatının inkişafı üçün yaxşı şərait var, amma insanlara əkib-becərməyə imkan vermirlər".

**Onun sözlərinə görə, Qarabağda yaşayan ermənilərin əksəriyyəti oradan qaçır:** "Belə davam etsə, Qarabağda erməni qalmayacaq və azərbaycanlılar döyüşmədən boş qalmış ərazilərə geri qayıdacaqlar".

**Yada salaq ki, Sterliqov ötən il Qarabağda yaşamağa başlayanda orada hər şeyin yaxşı olduğunu, insanların rifah içində yaşadığını iddia edirdi.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 127 (6448) 11 iyun 2016



# Yay düşərgələri valideynləri niyə soyub soğana çevirmək istəyir - araşdırma

## Azərbaycanda yay istirahət industriyasının pərdəarxası...

**Yay ayları valideynlər üçün ciddi sınaqdır. Məktəblər tətildə, uşaqlar evdə... Normal istirahət təşkil etmək üçün nə etməli? Uşaqlığımızın bir dönəmi Sovet illərinə təsadüf edən bizlər pioner düşərgələrində keçən yay istirahətinin nə demək olduğunu yaxşı bilirik. Valideynlərin iş yerindən verilən göndərişlərlə keçirilən ucuz və sərfəli yay istirahəti sözün bütün mənalarında onların üzünü ağ edirdi. Bəs indi?**

Elanlarda, xəbərlərdə, reklamlarda tez-tez bu sayaq elanlarla qarşılaşmaq mümkündür. Məlum olur ki, ölkə ərazisində çoxlu sayda uşaq düşərgələri, yay məktəbləri və sair varmış. Öncə varlı və imtiyazlılara təqdim olunanlar barədə. Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) işçilərinin uşaqları üçün E.ON şirkətinin dəstəyi ilə Almaniyada yay düşərgəsi təşkil edilir. Müqaviləyə əsasən, SOCAR və E.ON şirkəti əməkdaşlarının 12-13 yaşlı uşaqları üçün Azərbaycanın və Almaniyanın müxtəlif şəhərlərində yay düşərgələri təşkil edilir. 2014 və 2015-ci illərdə Almaniyada SOCAR əməkdaşlarının uşaqları üçün 15 günlük yay düşərgəsi təşkil olunub. Bu məqsədlə müsabiqə elan edilib və 32 nəfərin müraciəti qəbul olunub. Dediyimiz kimi, bu, xüsusi təbəqə üçün.

İndisə elanlara keçək. Bunlardan biri CELT Colleges Düşərgə və Tədris Mərkəzinin yaydığı elandır. Bu mərkəz hər il yayda *(2009-cu ildən bəri)* Azərbaycanın müxtəlif bölgələrində uşaq, yeniyetmə və gənclər üçün nəzərdə tutulmuş təbiət qoynunda *(kotec və çadırlarda)* təşkil etdiyi ənənəvi ingilis dilli yay düşərgəsi keçirir. Düşərgədə 6 yaşdan yuxarı hər kəs iştirak edə bilər. Düşərgə 2 həftə olmaqla iyun, iyul, avqust və sentyabr aylarında keçirilir. Qeydiyyat fevral ayından başlanıb.

*I qrup - 06 iyun - 20 iyun*
*II qrup - 20 iyun - 04 iyul*
*III qrup - 04 iyul - 18 iyul*
*IV qrup - 18 iyul - 01 avqust*
*V qrup - 01 avqust - 15 avqust*
*VI qrup - 15 avqust - 29 avqust*
*VII qrup - 29 avqust - 12 sentyabr.*

2 və daha çox qrup şəklində müraciət edənlərə və valideynlərə endirimlər nəzərdə tutulur.

Üstəgəl

- Gündəlik İngilis dili dərsləri
- Nəqliyyat, yaşayış və gündə 3 dəfə qidalanma
- Müxtəlif idman oyunları
- Ekskursiyalar
- Maarifləndirici və əyləncəli fəaliyyətlər
- Professional təlimçilər.

Dəqiqləşdirmə zamanı isə öyrəndik ki, bu il sözügedən düşərgə Zaqatalada olacaq. Aprelin 31-ə qədər düşərgə üçün qeydiyyata düşənlər 625 AZN ödəyirdi. İndi isə qiymətlər 700 AZN-dir. Bir ailədən bir neçə nəfər uşaq düşərgədə iştirak edəndə qiymətdə endirim olur.

Qiymətin baha olduğunu düşünüb, detallarla maraqlanırıq. Bildirilir ki, gündə 3-5 saat İngilis dili dərsləri, hər gün 3 dəfə qidalanma, açıq hava oyunları (futbol, voleybol), ingiliscə danışıq klubları, futbol, basketbol, voleybol və tennis oyunları, üzgüçülük hovuzu və üzgüçülük dərsləri, vəhşi təbiətlə tanışlıq və təbiətdə özünü idarəetmə, atçılıq, səmti müəyyən etmə, oxatma və atıcılıq, ilk tibbi yardım, müxtəlif ekoloji təlimlər və iməciliklər, sənətkarlıq və dulusçuluq, rəsm təlimləri, öyrədici və əyləncəli sosial fəaliyyətlər, kiçik qruplar üçün dərnəklər, dağ yürüşləri və meşə gəzintiləri. Dağçılıq və ekstrim idman növləri üzrə yarışlar, elmi və mühəndislik təlimləri, qızlar üçün kulinariya, tikiş və rəqs dərnəkləri və s. yaxınlıqda yerləşən qəsəbə və kəndlərə ekskursiyalar, tonqal ətrafında müsabiqələr, ingiliscə kino və karaoke gecələri, partylər, istəyə uyğun olaraq məşqçi ilə taekvando və güləş təlimləri, 24 saat həkim nəzarəti, Welcome və goodbye party, mövsüm sonunda təntənəli keçirilən sertifikat təqdimatı. Qrafik çox dolğun görünsə də, bütün hallarda tariflər orta statistik azərbaycanlı üçün olduqca yüksək görünür.

Düşərgələrə uşaq göndərməyə risk etməyənlər isə yay məktəbi ilə kifayətlənməli olur. Belə ki, bu məktəblər də uşaq bağçasının başqa növüdür. Bir fərqlə - burda dərs də keçirlər. Bunlardan birinin elanında isə belə yazılmışdı: "Yay məktəbi işləyən və övladlarını rayonlara istirahətə apara bilməyən valideynlərin uşaqları üçün vacib, səmərəli və düzgün seçimdir. Yay məktəbi səhər saat 08:30-dan 18:00-dək, həftənin 5 günü üçün nəzərdə tutulub. Onlar üçün maraqlı proqramlar hazırlanıb. Gün ərzində sizin övladlarınız üçün səhər, günorta və axşam olmaqla, gündə 3 dəfə yemək nəzərdə tutulur. Bundan əlavə, cədvələ uyğun olaraq uşaqlar voleybol, rəqs, rəsm, şahmat, gimnastika, yay tapşırıqlarının həll edilməsi, məntiq, ingilis dili və bu kimi başqa məşğələlərdən yararlanacaq. Bundan əlavə uşaqlarla birgə şəhərdaxili gəzintilər".

Maraqlandıq, bu məktəbin bir ayı da 300 AZN-dir. İyunun 10-a qədər qeydiyyata düşənlər 250 AZN ödəyirlər. Təbii ki, əgər yay boyu uşağınızın istirahət yox, dərslə məşğul olmasını istəyirsizsə.

"Tərəqqi 1" Tədris Mərkəzi də uşaqlar üçün yay məktəbi təşkil edir. Bu məktəblərə də 5 fənn daxildir. Rəsm, şahmat, riyaziyyat, ingilis, Azərbaycan dilləri. Uşaqla hər gün 3 saata yaxın məşğul olurlar. Həftənin 5 günü keçirilən bu kursların aylığı isə 100 AZN-dir. Kurslar iyunun 17-dən etibarən başlanır. Səhər saat 10-dan 1-ə və ya günorta 2-dən 5-ə kimi.

"Buggy Bug" Tədris və İnkişaf Mərkəzində hər il İyun ayının 1-dən etibarən Yay məktəbi başlayır. Yay məktəbi səhər saat 08:30-dan 18:00-dək, həftənin 5 günü üçün nəzərdə tutulub. Gün ərzində uşaqlara səhər, günorta və axşam olmaqla, gündə 3 dəfə yemək nəzərdə tutulur. Bundan əlavə, cədvələ uyğun olaraq uşaqlar voleybol, rəqs, rəsm, şahmat, yay tapşırıqlarının həll edilməsi, məntiq, ingilis dili və bu kimi başqa məşğələlərdən yararlanırlar.

Şəhərin içində yay düşərgəsi təşkil edənlər də var. Bunlardan biri də Kempinski otelidir. Otellə əlaqə saxlayanda məlum oldu ki, bu düşərgə 6-12 yaşlı uşaqlara aiddir. Üstəlik, bir günü 60 AZN-ə başa gəlir. Burada da aşağı-yuxarı eyni xidmətlərdir: yemək, əyləncə, ingilis dili, oyunlar, məşğələlər... Səhər saat 9-dan axşam 6-ya qədər.

Xarici ölkələrdə yay düşərgələri perspektivi isə yetərincə bahalıdır. Məsələn, onların arasında ən ucuzu Kiprdə olan idi. 2 həftədən başlayan düşərgəni valideyn istədiyi müddətə qədər uzada bilər. Qalacaq yer, 3 dəfə qidalanma və digər əyləncələr daxil bu düşərgənin qiyməti 1350 AZN-dir. Eyni şərtlərlə Almaniyada 2 həftəlik düşərgə 1850 AZN qiymətindədir.

İngiltərədə də yeniyetmələr üçün yay düşərgəsi keçirilir. Stradford - upon - Eyvonda yay düşərgəsi təşkil olunur. Hər on şagird /tələbə üçün bir qrup rəhbərinin iştirakı ödənişsizdir. İki həftəlik əyləncəli istirahət üçün cəmi 1350 AZN ödəmək lazımdır.

**Qiymətə aşağıdakılar daxildir:**

- Viza sənədlərinin hazırlanması
- Qeydiyyat ödənişi
- Hava limanında qarşılama
- Tam təmin olunmuş rezidensiyalar
- Gündə üç dəfə isti yemək
- Həftə ərzində 21 saat təlim
- Hər həftə iki dəfə ekskursiya
- Gün ərzində 2 dəfə asudə vaxtın əyləncəli keçirilməsi

Pulsuz yay düşərgələri də varmış. Amma xəstə uşaqlar üçün. JOY Uşaq İnkişaf Mərkəzi 20 iyundan başlayaraq iyul ayı boyunca 6 həftəlik pulsuz yay düşərgəsi təşkil edir. Nitq ləngiməsi, sosial qorxu və yaxud uşaqlarla ünsiyyətdə çətinliklər, oyun və hərəkət zamanı çətinliklər, oxumaq, yazmaq və öyrənməkdə çətinliklər, autizm, Down Sindromu və Serebral iflic xəstəliklərindən əziyyət çəkən uşaqlar üçün də müxtəlif əyləncələr nəzərdə tutulub.

"Azərbaycanda uşaq düşərgələri sistemi yaradılacaq". Bunu isə hər yayqabağı Milli Məclisin Sosial siyasət komitəsinin sədri Hadı Rəcəbli deyir. O bildirir ki, bu, "Uşaqların asudə vaxtının təşkili" ilə bağlı Milli Məclisdə hazırlanmış yeni qanun layihəsində nəzərdə tutulur. Deputatın sözlərinə görə, qanun layihəsində uşaqların zərərli vərdişlər - siqaret çəkmək, narkomaniya və internet asılılığı kimi hallardan uzaqlaşdırılması üçün müxtəlif üsullar təklif olunur: "Bütün ölkə üzrə kütləvi şəkildə yay düşərgələri yaradılmalı, həftə sonları məktəblilərin rayonlara ekskursiyaları təşkil olunmalıdır. Həmkarlar ittifaqlarında bununla əlaqədar vəsaitlər olmalıdır. İşəgötürənlər də uşaqların asudə vaxtının təşkilinə vəsait ayrımalıdır".

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 127 (6448) 11 iyun 2016

# "Turistlər haqlarını tələb etsinlər"

## Turizm eksperti: "Bu sahədə iki amil əsasdır; qiymətlər və servis"

**Yay mövsümü başlayıb, yenə də yerli turizmin imkanlarını, daha doğrusu, çatışmazlıqları mətbuatın müzakirə obyektinə çevrilib. Xüsusən də xidmət səviyyəsinin qonşu ölkələrlə müqayisədə aşağı səviyyədə olması, xidmət sektorunda çalışanların elementar müraciət qaydalarına belə riayət etməməsi, ələbaxımlı olması turistləri ən çox narahat edən məqamlardır. Hökumətin turizmə diqqətini artdırdığı bir vaxtda, belə kiçik və həlli asan olan neqativlərin aradan qaldırılması xüsusi iş tələb edir. Belə ki, turizm obyektlərində çalışanların xüsusi təlim kurslarına cəlb olunması, onların qarşısında ciddi tələblər qoyulması, xidmət şərtlərinin və qiymətlərin turistin mənafeyini düşünərək müəyyənləşdirilməsi və sair kimi tədbirlərin həyata keçirilməsinə ehtiyac var.**



Azərbaycanın turizm imkanlarından danışan bu sahə üzrə **ekspert Çingiz İsmayılov** belə neqativlərin müsbət məqamları da kölgə altında qoyduğunu dedi. Bildirdi ki, hazırda bu istiqamətdə bir sıra işlər aparılır, lakin yetərli deyil: "Bütün turizm mərkəzlərinin sertifikatlaşdırılması işi aparılır, hər bir obyektdə servisin səviyyəsinə nəzarət olunur. Bir neçə ildir ki, Azərbaycanda Mədəniyyət və Turizm Nazirliyinin nəzdində Turizm və Menecment Universiteti yaradılıb, orada mütəxəssislər hazırlanır. Artıq neçə ildir ki, onlar xarici universitetlərlə müqavilə bağlayıblar, orada təcrübə keçirlər. Lakin Azərbaycanın beynəlxalq turizm səviyyəsinə çatması üçün çox illər lazımdır. Çünki biz cəmi 25 illik respublikayıq və beynəlxalq turizm təcrübəmiz çox zəngin deyil. Buna görə də, ölkənin beynəlxalq turizm sərgilərində iştirakı, müxtəlif forumlarda iştirakı, bu universitetə xaricdən mütəxəssislərin cəlb olunması, bizim tələbələrin praktikanı Avstriyada, Misirdə və ya Türkiyənin turizm mərkəzlərində keçməsi çox vacibdir. Əlbəttə, bizim yerli turizmi dünya standartlarına çatdırmağa zaman lazımdır. Ancaq etiraf edək ki, irəliləyiş var və bu irəliləyişdə Azərbaycanın beynəlxalq əlaqələrinin gücləndirilməsi də geniş rol oynayıb. Şahdağ Turizm Kompleksinin inşasında, servis sahəsinin yaradılmasında xarici mütəxəssislərin cəlb edilməsi çox önəmlidir. Bizim mütəxəssislərimiz də tədricən bu işə qoşulurlar. Əlbəttə ki, bu iş vacibdir. Çünki turizmin rəqabətə davamlılığı iki amildən əhəmiyyətli dərəcədə asılıdır. Bunun biri qiymətlərdir, ikincisi isə servisdir. Hər il beynəlxalq turizm sərgisinin keçirilməsi, orada müxtəlif şirkətlərin iştirakı, bizim mütəxəssislər üçün müxtəlif təkliflərin verilməsi çox əhəmiyyətlidir. Beynəlxalq əlaqələrin genişlənməsi turizm üçün olduqca əhəmiyyətlidir".

**Ç.İsmayılovun sözlərinə görə, bölgələrdə servisin səviyyəsi paytaxtda olduğundan daha aşağı səviyyədədir. Bu baxımdan bölgələrdə daha çox iş aparmaq lazımdır:** "Bu sahədə məqsədyönlü işlər aparmaq lazımdır. Xüsusən servis sahəsinə diqqət vermək lazımdır. Əsasən də bölgələrdə vəziyyətin nə yerdə olduğunu araşdırmaq lazımdır. Çünki bölgələrdə çox yaxşı təbii coğrafi üstünlüklər var. Ancaq servis sahəsində vəziyyət paytaxtda olduğundan da aşağıdır. Orada turistə olan münasibət də dəyişməlidir. Bu həm də bizlərdən, potensial turistlərdən asılıdır. Biz hər hansı istirahət mərkəzində öz kəskin tələblərimizi qoysaq, hüquqlarımızı təmin etmək üçün şərtlər qoysaq, əlbəttə, həm obyektin işçiləri də bizə daha ciddi yanaşacaqlar. Ancaq əgər ofisiantlar və ya servis sahəsinin işçiləri bizə başdansovdu yanaşacaqlar və biz buna reaksiya verməyəcəyiksə, onlar da elə biləcəklər ki, elə belə də olmalıdır. Yəni turistlərdən də çox şey asılıdır. Turist öz haqlarını tələb etməyi bacarsa, onların da münasibəti dəyişəcək. O şirkətlərin qoyduğu bütün şərtləri də qəbul etməməliyik, etiraz etməliyik, o şirkətləri də biz dəyişməliyik. Bütün şərtlə istehlakçıların tələblərinə cavab verməlidir. Əgər cavab vermirsə, həmin turizm mərkəzindən imtina etmək lazımdır ki, gəlir əldə etməsin, müflis olsun. Məcbur qalıb müştərilərinin haqlarına hörmətlə yanaşsın. İstər yerli, istərsə də xarici turistlər öz haqlarını tələb etsə, bütün çatışmazlıqları rəhbərliyə desə, ağıllı rəhbər bundan nəticə çıxaracaq. Uzaqgörən olmayan rəhbər isə sadəcə itirəcək. Bir narazı turist digərləri arasında da anti-təbliğat aparacaq. Ancaq servis yüksəkdirsə, gedib qohumları üçün tərifləyəcək".

**Ekspert onu da vurğuladı ki, turizm mərkəzilərində xidmət sektorunda çalışanların xüsusi təlimlərə cəlb edilməsi, onlara ictimai davranış, müraciət qaydalarının, xidmət etiketlərinin öyrədilməsi vacib şərtdir:** "Bəzi texniki tədris mərkəzlərində orta səviyyəli mütəxəssislər üçün belə kurslar keçirilir. Lakin otellərdə ki, qəbul qeydiyyat şöbəsinin işçiləri *(resepşnlar)*, ofisiantlar, xadimələr üçün belə xüsusi təlimlər keçirilməlidir. Çünki turizm xidməti həmin mərkəzin qapısından girdiyin andan başlayır və qapıdan çıxdığın ana qədər davam edir. Əgər müştərini aeroportda qarşılayırsa, gətirən sürücüdən tutmuş, yükləri daşıyana qədər hər biri o turizm mərkəzini təmsil edir. Bu bütöv bir zəncirdir və hər biri yüksək səviyyədə olmalıdır. Məsələn, Türkiyənin turizm şirkətlərindən bütün turistlər razıdır. Çünki resepşn gülər üzlə qarşılayır, istədiyin nömrəni verir, hər şeyi izah edir, yol boyu bütün xidmətlər, turlar, konsertlər qiymətlər haqqında məlumat verirlər. Yarım saat içində asudə vaxtı necə daha maraqlı keçirməklə bağlı bütün məlumatları verirlər. Bu baxımdan turist də zövq alır. Hətta sən bəzi xidmətlər barədə məlumatsız olsan belə, özləri yadına salır, təklif edirlər. Turizm budur".

❑ N.LİFTİYEVA

# Fermerlər sığorta məsələsini qaldırdılar

## Rəşad Həsənov: "Dövlət sığorta haqlarının ödənilməsinə dəstək verməlidir"

**Artıq neft sektoru Azərbaycan üçün böyük bir perspektiv vəd etmir. Mütəxəssislər buna adekvat olaraq kənd təsərrüfatı sahəsinin inkişaf etdirilməsinin vacibliyindən danışırlar. Bu məsələ gündəmdə ikən son günlər hava şəraitinin kəskin dəyişməsi, bölgələrə dolu və leysan yağması, nəticədə fermer təsərrüfatlarına, əkin sahələrinə ciddi ziyan dəyməsi də onu göstərdi ki, kənd təsərrüfatı sahəsi həm də əslində təbiətin şıltaqlığından asılıdır.**



Dünya təcrübəsində fermerləri baş verə biləcək hadisələrdən sığortalamaq üçün kənd təsərrüfatı sahəsində çalışan sığorta şirkətləri fəaliyyət göstərir. Onlar fermerin təbii hadisələr zamanı itirdiklərini qarşılayırlar. Avropa ölkələrinin təcrübəsi isə belədir ki, dövlət və sığorta şirkəti fermerin mal-qarasını və ya əkin sahələrini 100 faiz sığortalayır, hər hansı hadisə baş verərsə, zərərçəkənə dəymiş ziyan tam şəkildə ödənilir. Azərbaycanda isə bu sığorta sisteminin tətbiq olunmaması fermerliyə olan marağı azaldır. Çünki kəndlinin torpağa yatırdığı investisiya bəzən bir günün içində batır.

Kənd təsərrüfatının inkişafının gündəmdə olduğu indiki mərhələdə ekspert bu sahənin sığorta xidməti ilə təmin olunmasının vacibliyindən danışırlar.

Qeyd edək ki, "AZSIĞORTA" ASC kənd təsərrüfatı ilə məşğul olan şəxslər və müəssisələr üçün "Kənd təsərrüfatı bitkiləri məhsullarının doludan sığortası və Heyvanların sığortası qaydaları"na əsasən sığorta təminatını təklif edir. Lakin bu da kəndlilər arasında geniş yayılmayıb.

**İqtisadçı ekspert Rəşad Həsənov** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, kənd təsərrüfatı digər sahələrlə müqayisədə təbii risklərə daha çox məruz qalan sahələrdən biridir: "Bu baxımdan bir çox hallarda sığorta şirkətləri bu sahədə fəaliyyət göstərməyə maraqlı deyillər. Hazırda ailə fermer təsərrüfatlarının bu xidmətlərdən istifadə imkanları məhduddur. Azərbaycanda bu gün ümumiyyətlə, kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən subyektlərin cəmi 4-5 faizi sığortalanıb. Son dövrlər bu məsələ aktuallaşıb. Çünki kənd təsərrüfatı sektorunun inkişaf prioritet olaraq ortaya qoyulubsa təbii ki, bu sferada fəaliyyət göstərənlərin zəhmətləri də zəmanət altına alınmalıdır. Hazırda Maliyyə Bazarlarına nəzarət Palatası kənd təsərrüfatı sektorunda sığorta qaydalarının hazırlanması üzərində işləyir. Növbəti illərdə də bu sahəyə diqqət artırılacaq. Ötən 10 ildə bu sahəyə diqqət çox az idi və ölkənin kənd təsərrüfatına yararlı torpaq sahələri demək olar ki, yararsız qalmışdı. Halbuki daimi olaraq, Azərbaycan iqtisadiyyatında ən mühüm sahələrdən biri də aqrar sektordur".

**Ekspert qeyd etdi ki, bugünkü durumu nəzərə alsaq, kənd təsərrüfatı sahəsində xüsusi islahatların aparılmasına ehtiyac var. Bunlardan da biri fermerlərin əməyinin sığortalanmasıdır:** "İndiyə qədər kənd təsərrüfatında sığorta fəaliyyətinin inkişaf etməməsinin səbəbi də sığorta sisteminə olan ictimai inamsızlıqdan doğur. Çünki zaman-zaman sığorta şirkətləri yüzlərlə bəhanələr gətirərək vətəndaşları aldadırlar, onlara sığorta haqlarını tam şəkildə ödəmirlər. Bu isə son nəticədə sığorta şirkətlərinə inamsızlığa gətirib çıxarır. Bu istiqamətdə də müəyyən addımlar atılmalıdır. Çünki Azərbaycanda sığorta bazarının zəif inkişafının əsas səbəblərindən biri də inamsızlıqdır. Bundan başqa kiçik fermer təsərrüfatlarının maliyyə imkanları zəif olduğu üçün sığorta xidmətlərindən istifadə edə bilmirlər. Bu baxımdan hesab edirəm ki, hökumət sığorta haqlarının ödənilməsində hansısa formada iştirak etməlidir. Bu Avropa ölkələrində də tətbiq olunan üsullardan biridir. Onlar kəndli fermer təsərrüfatlarının risklə üzləşdiyi durumlara sığorta haqqının bir hissəsinin dövlət tərəfindən ödənilməsini həyata keçirirlər. Azərbaycanda da buna bənzər təcrübə tətbiq edilməlidir. Dövlət sığorta haqlarının ödənilməsinə dəstək verməlidir. Beləliklə, bir neçə ilə müəyyən ənənə formalaşa bilər. Sığorta olunanlar da baş verən hadisələr fonunda bu sığortanın əhəmiyyətini dərk edər və kənd təsərrüfatı sektorunda sığorta genişlənə bilər".

❑ NƏRGİZ

YENİ MÜSAVAT
N 127 (6448) 11 iyun 2016

# Məcburi köçkün Hacıbala Abutalıbovun qohumundan şikayətçidir

## Elçin Rəhimov: "Emin Talıbovun adamları məndən 7 min manat tələb edir"

**Cəbrayıl rayonundan məcburi köçkün düşən Elçin Rəhimov redaksiyamıza şikayət məktubu ilə müraciət edib. O bildirib ki, 1993-cü ildən məcburi köçkün kimi Bakı şəhəri Xətai rayonu Q.Nəbi küçəsi 1/2 saylı yataqxanada məskunlaşıb. Şikayətçi bildirir ki, bu ilin fevral ayında dünyasını dəyişən qonşusunun otağı ilə bağlı yaşadığı ərazinin Mənzil Kommunal İstismar İdarəsinin rəisi ilə aralarında mübahisəli məsələ yaranıb:**



"Dörd nəfərlik ailəm ilə birgə 12 kv-lıq iki otaqlı evdə məskunlaşmışam. Qızım Rəhimova Fidan 11, oğlum Sinan 7 yaşındadır. Sinan anadangəlmə ağır gedişli bronxial astma xəstəliyindən əziyyət çəkir. Bununla bağlı Qaçqın və Məcburi Köçkünlərin işləri üzrə Dövlət Komitəsinə dəfələrlə müraciət etməyimə baxmayaraq, heç bir köməklik olmayıb. 03.02.2016-cı ildə qonşuluqda yaşayan 90 yaşlı Quliyeva Səlbi rəhmətə getdi. Övladı olmadığı üçün ona qardaşı qızı baxırdı. S.Quliyeva rəhmətə getdikdən sonra qardaşı qızının imkanı olmadığı üçün məndən xahiş etdi ki, yas mərasimi üçün ona maddi köməklik edim. Mən buna görə rəhmətliyin dəfn xərcinə 3500 manat pul xərclədim. Bunu və oğlumun xəstəliyini nəzərə alan rəhmətlik Səlbi Quliyevanın qardaşı qızı onlara məxsus olan otağı mənə verdi. Bundan sonra Xətai rayonunda yerləşən 122 saylı MKİİ rəisi Asəf Şərifov və 1 saylı Xüsusi Təyinatlı Mənzil Kommunal Təsərrüfat Birliyinin işçisi Cavanşir məni yaxınlıqda yerləşən kafeyə dəvət edərək bildirdilər ki, otağa görə birliyin rəisi Emin Talıbov 7 min manat pul tələb edir. Mən isə mənim bu qədər pulum olmadığını dedim. Onlar mənə "fikirləş, yoxsa səni bu otaqdan rəisimiz E.Talıbov çıxaracaq" dedilər. Mart ayının 1-də həyat yoldaşım Rəhimova Ülviyyə bu barədə Xətai Rayon Prokurorluğuna yazılı surətdə müraciət edit. Səhəri gün Asəf və Cavanşir və daha 2 nəfər bizə gələrək mənə, oğlum Sinana otaqdan çıxmaq üçün güc tətbiq etdilər. Bu barədə prokurorluğa və 102 xidmətinə müraciət etdim. Ancaq mənə yazılı məlumat verildi ki, burada heç bir cinayət işi yoxdur. Bundan sonra onlar dəfələrlə bizə gələrək, məni və ailəmi təhqir etməyə başladılar. Bütün bunlar barəsində Baş Prokurorluğa müraciət etsəm də bu insanlar barəsində tədbir görülməyib. Məndə olan məlumata görə, Emin Talıbov Bakı meri Hacıbala müəllimin yaxın qohumudur".

Məcburi köçkün Elçin Rəhimov şikayət məktubunda qeyd edib ki, məsələ ilə bağlı XİN-ə, BMT-nin Qaçqınlar üzrə Komissarlığının Bakı nümayəndəliyinə şikayət edib və hətta bir neçə səfirliyə müraciət edərək onların dövlətlərindən sığınacaq istəyib. Səbəb isə onun ailəsinin vəfat edən qonşusunun otağından çıxarılması ilə bağlı E.Talıbov tərəfindən Xətai Rayon Məhkəməsinə müraciət etməsidir.

Məsələnin hüquqi tərəflərini aydınlaşdırmaq üçün **"Hüquqi Dövlət" Araşdırmalar Mərkəzinin rəhbəri, tanınmış hüquqşünas Müzəffər Baxışa** müraciət etdik. Hüquqşünas qeyd etdi ki, ölən şəxsin mülkiyyəti ilk növbədə onun ən yaxın varisinə keçməli, məhz bundan sonra varis mülkiyyəti sata və ya hədiyyə edə bilər:

"Vətəndaşın ancaq bir yolu var ki, kimə pul veribsə onu məhkəməyə verib, pulu məhkəmə qaydasında ondan alsın. Əgər əvvəldən şikayətçi ilə ölən şəxsin arasında renta müqaviləsi bağlanılsaydı onda ev ona qala bilərdi. Amma ölən məcburi köçkünün qohumu şikayətçidən pul alıb, yas xərclərini keçirib. Qohumun heç bir səlahiyyəti olmadığı halda şikayətçidən 3550 manat pul alıb. Buna görə də şəxs ondan pul alan qohum barəsində məhkəməyə müraciət etməlidir. Həmin qohum heç bir şəkildə evi ona verə bilməz. Əgər Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətində ölən şəxsin evi barədə sənəd olarsa, onun evinə vərəsəlik açılacaq və miras birinci növbədə onun uşağı, övladı, varisi varsa ona keçəcək. Əgər birinci dərəcəli varisi olmazsa 2-5-ci növbəyə qədər olan onun qohumları vərəsəlik qaydasında həmin evi əldə edə bilərlər. Sonradan vərəsəlik hüququ əldə edən qohum həmin evi sata və ya bağışlaya bilər".

❑ **Xalidə GƏRAY**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



**Yenilik! Rusiyada təhsil almış və Moskvada müdafiə etmiş**
tibb elmləri namizədi, təcrübəli həkim
**Darya İvanovna**

**varikoz və postvarikoz trofik yaraları, habelə diabetik yaraları özəl metodika ilə, cərrahi müdaxiləsiz müalicə edir.**
**Tel (051) 634-40-01**



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks hələqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**
Tel: (055) 776-70-34


bakcell

## BƏƏ-də səfərdə olan «Bakcell» abunəçiləri artıq hər MB üçün cəmi 1 qəpik ödəyəcəklər

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti Yaxın Şərq bölgəsinin aparıcı telekommunikasiya operatoru olan "Etisalat" şirkəti ilə yeni razılaşma imzalayıb. Bu razılaşmanın şərtlərinə əsasən Birləşmiş Ərəb Əmirliklərinə səfər edən «Bakcell» abunəçiləri Türkiyə, Macarıstan, Almaniya, Böyük Britaniya və digər 19 ölkədə olduğu kimi hər MB üçün cəmi 1 qəpik ödəyərək yüksəksürətli internetdən istifadə etmək imkanına malik olacaqlar. Bu təklifdən yararlanmaq üçün abunəçilər sadəcə *125#1000#YES yığaraq rouminq internet paketini aktivləşdirməlidirlər.**

**"Hazırda abunəçilərimiz ümumilikdə 168 ölkədə 417 mobil operatorun şəbəkəsində rouminq xidmətindən istifadə edə bilirlər. «Bakcell» olaraq, biz bu siyahını genişləndirməklə yanaşı, abunəçilərimizin rabitə xidmətlərindən və yüksəksürətli internetdən daha ucuz və münasib tariflərlə istifadə edə bilməsinə imkan yaradan ən sərfəli təklifləri təmin etmək üçün mövcud rouminq tərəfdaşlarımızla sıx əməkdaşlıq edirik. Yeni imzaladığımız razılaşma bu istiqamətdə atdığımız daha bir addımdır", - deyə «Bakcell» şirkətinin baş marketinq və satış direktoru cənab Fedja Hadziç bildirib.**

**Qeyd etmək lazımdır ki, xarici səfərdə olan abunəçilər "Bakcell Roaming" mobil tətbiqindən istifadə etməklə bütün tərəfdaş rouminq ölkələrində və operatorlarında zəng, SMS və internet qiymətləri və rouminq xidməti üzrə cari kampaniyalar haqqında bütün məlumatları əldə edə, eyni zamanda, «Bakcell»lə onlayn əlaqə yaradaq dəstək ala bilərlər. Bundan əlavə, abunəçilər bu tətbiqin vasitəsi ilə öz nömrələrinin balansını asanlıqla artıra bilərlər. "«Bakcell» Roaming" mobil tətbiqi haqqında daha ətraflı məlumat üçün bu linkə daxil olun: http://www.Bakcell.com/az/Bakcell-rouminq-ap**



## Sel Şəmkir sakini apardı

**Samuxun Qarayeri qəsəbəsində ulağa qoşulmuş arabada olan 50 yaşlı Şəmkir sakini Kamil İlyasovu sel aparıb. Kəpəz TV (Region TV) xəbər verir ki, saat 9:30 radələrində baş verən hadisə nəticəsində dünyasını dəyişən şəxsin meyiti batdığı yerdən xeyli aralıda tapılaraq ailəsinə təhvil verilib.**

## Bu gün ölkə ərazisində yağış yağacaq

**İyunun 11-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, gün ərzində əsasən yağmursuz keçəcəyi gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən "Report"a verilən məlumata görə, arabir güclü şimal-qərb küləyi əsəcək.**

Havanın temperaturu Abşeron yarımadasında gecə 15-18, gündüz 20-24, Bakıda gecə 16-18, gündüz 22-24 dərəcə isti olacaq.

Azərbaycanın rayonlarında sabah şimşək çaxacağı, arabir yağış yağacağı, bəzi yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi gözlənilir. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 13-18, gündüz 22-27, dağlarda gecə 6-11, gündüz 11-16, yüksək dağlıq ərazilərdə gecə 0-4, gündüz 4-7 dərəcə isti olacaq.

**Tibbi-meteoroloji proqnoza gəlincə, iyunun 12-si gündüzədək Abşeron yarımadasında meteoroloji amillərin xeyli tərəddüdü və güclü xəzri küləyi meteohəssas insanlarda narahatlıq hissi yarada bilər.**







# İngilislər ruslara, debütant “yaşlı baba”ya qarşı

**Avropa çempionatının ikinci yarış günündə A və B qruplarında üç qarşılaşma olacaq. A qrupunda yer alan Albaniya millisi İsveçrə ilə qarşılaşacaq. B qrupunda isə İngiltərə Rusiyanı, Uels isə Slovakiyanı sınağa çəkəcək.**







## Bu gün ilk oyununa çıxan Rusiya bu çempionatda sıradan bir komanda kimi yadda qalacaq, bəlkə elə qrupda da...



**Dağdan düşən Albaniya**

Albaniya AÇ debütantı, İsveçrə isə bu yarışlarda “yaşlı baba” hesab oluna bilər. Albaniyanın Fransaya vəsiqə qazanması futbol çox da populyar olmayan bir cırtdan ölkə üçün artıq böyük uğurdur. Amma bu o demək deyil ki, “dağdan” gəlmiş albaniyalılar bugünkü oyunda İsveçrəyə xal verib hotelə dönəcəklər. Əksinə, bukmeyker kontorlarında Albaniyanın qrupdakı rəqiblərinin “qanını içəcəyini” proqnozlaşdırırlar.

Təcrübəli İsveçrə millisinin qarşısında Albaniya autsayder kimi görünə bilər. Amma unutmaq lazım deyil ki, Albaniya AÇ final mərhələsinə vəsiqə uğrunda mübarizədə Serbiya və Danimarka kimi ambisiyalı komandaların Fransa arzusunu gözündə qoyub.

Albaniyanın əsas oyunçuları, Avropanın Xorvatiya və Azərbaycan da balaca dövlətlərində oynayırlar. Amma futbol mütəxəssisləri Albaniyanın əsas üstünlüyünə diqqət çəkir: Albaniya komanda oyunu oynayır. Qeyd edək ki, hər iki komandanın məşqçisi bəzi oyunçuları heyətə daxil etməyiblər.

Məsələn, Hollandiyada və İtaliyada oynayan Berat Cimisiti və Milota Raşitsa Albaniya milisinin heyətinə daxil edilmədi. Eləcə də İsveç milisinin məşqçi heyəti də azarkeşlərə sürpriz etdilər. “Nati”ın sabiq kapitanı, İngiltərə çempionu “Lester”in türk kökənli oyunçusu Gökhan İnler heyətə daxil edilmədi. Belə görünür ki, İsveçrə milisində yarımmüdafiə xətti güclü olduğundan İnler heyətə daxil edilmədi.

Albaniya və İsveç Avropa çempionatının hazırlıq mərhələsində hərəyə 4 oyun keçiriblər. Albanlar Ukrayna və Avstriyaya uduzub, Qatar və Lüksenburqla görüşdə qələbə qazanıblar. İsveç Moldova yığmasına qalib gəlib. İrlandiya və Bosniya ilə oyunda, eləcə də Belçika ilə oyunda məğlub oldu. Bütün oyunlarda qapılarında top buraxmaları İsveçrə millisində hər şeyin heç də tam qaydasında olmadığını göstərdi.

Albaniya millisinin baş məşqçisi italiyalı Canni De



Byazni ilə İsveçrənin çalışdırıcısı Vladimir Petkoviç Avropa futboluna yaxşı bələddirlər. Onların hər ikisi İtaliyada məşqçi işləyiblər, De Byazi 21 ilik məşqçi karyerasında 15 ilinin vətəndə keçirib, Petkoviçdə uzun illər İtaliyada işləyib. Onun ən böyük uğuru isə “Latsio” ya İtaliya kuboku qazandırmaq olub.

Albaniya və İsveçrə komandası tarixi ərzində 6 oyunda qarşı-qarşıya gəliblər. Beş oyunda skandinaviyalılar qalib gəlib, bir oyun isə heç heçə bitib. Bukmeyrerlərin proqnozlarına görə, bu oyunda qapılar çox top vurulacağı gözlənilmir və İsveçrənin qələbə şansı daha çoxdur.

Lans şəhərində keçiriləcək qarşılaşmanın baş hakimi İspaniya təmsilçisi Karlos Velasko Karbalodur. Karbalo “Avro-2012"də Polşa və Yunanıstan milisi arasında keçirilən açılış matçının da hakimi olub.

**Qaret Beyli-Marek Xamşik dueli**

Avro-2016-da altı komanda ilk dəfədir ki, AÇ-də iştirak edir ki, onlardan biri də B qrupunda yer alan Uelsdir. Britaniya futbol məktəbinin daha bir yetirmələri olan Uels 50 illik fasilədən sonra bu cür mötəbər yarışa qatıla bilib. Uels 1958-ci ildə İsveçdə keçirilən dünya çempionatında Con Çarlzın rəhbərliyi ilə iştirak edib və 1\4 qədər irəliləyib. Uels beynəlxalq arenalarda uğurlu nəticə əldə edə bilməsə də, İan Raş və Rayan Qiqz kimi tanınmış futbol ulduzları olub. Komandan əsas ümidi seçmə mərhələnin oyunlarında 7 qol vurmuş “Real”ın heyətində oynayan Qaret Beyldir. “Liverpul”lu Co Allen, “Arsenal”dan Arn Remzi də bu gün meydanda slovaklara ciddi problemlər yara bilərlər. Beyl bu çempionatda təkcə bombardir olmaq niyyətində deyil. O əfsanəvi futbolçu İan Raşın rekordunu keçmək istəyir. Raş millinin heyətində 28 top vurub. Beylin hesabında 19 top var.

Əgər Uelsin lideri Beyldirsə, Slovakiya millisi İtaliya “Napoli”sinin pleymeykeri Marek Xamşiksiz təsəvvür et-




mək çətindir. İtaliya mətbuatı komanda yoldaşlarının daima topla təmin edən Xamşiki yeni Zinəddin Zidan adlandırır. Marek Slovakiya milisinin əsasən bütün hücumlarının təşkilatçısıdır. Uelsin iki müdafiəçisi Ceyms Kollinz və Eşli Uilyams Mareki bugünkü oyunda neytrallaşdırmağa çalışacaqlar.

Hər iki komanda indiyədək iki dəfə üz-üzə gəlib. Slovakiyada Uels 1:5 hesabı ilə məğlub olub. Uelsdə isə yerli komanda güclü olub: 5:2. Bugünkü oyunda komandaların şansları bərabər hesab olunur. Oyunun start fitini norveçli hakim Sveyn Moen verəcək.

**İngiltərə Rusiyadan qisasını alacaqmı?**

Hələ dekabrda “Avro-2016"nın püşkü atılanda bu qrupun ən güclüsü kimi İngiltərədən sonra Rusiya millisi hesab olunurdu. "Niyə"sini mənim üçün demək çətindir. Həm də təkcə rusların şişirdilməsinə görə yox...

İngiltərə haqda da hər bu kimi çempionatlar ərəfəsi çoxlu proqnozlar verilir, çempionluğa namizəd göstərilir. İngilislər Avropada yeganə ölkədir ki, dünya çempionu olub, amma heç vaxt Avropanın birincisi ola bilməyib. İngilislər bunun üçün müxtəlif bəhanələr düz-qoş edə biliblər. Bu dəfə də uğursuzluq olsa, nə isə bəhanə tapılacaq. İngilislər meydana daima yaxşı futbolçu çıxarırlar, amma meydana canını qoyan komanda yox. İngilis futbolçular parlaqdırlar, göz qamaşdırırlar, amma komanda olaraq meydanda mübariz deyillər. Futbolun vətəni sayılan İngiltərənin nəfəsi ona görə çempionatın finalına gedib çatmağa bəs etmir. Bu dəfə də ingilislər yaxşı heyətlə, əsasən gənclərlə gəliblər. Görək, bu dəfə nə olur...

İngiltərə və Rusiya müasir tarixdə intriqalı komanda hesab olunurlar. “Avro-2008" seçmə mərhələsində iki dəfə qarşılaşıblar. 2007-ci ildə Lujnikidə keçirilən oyunda Qus Hiddinkin komandası ingilislərə 2-1 hesabı ilə qalib gəldi. Xorvatiyaya da qrup mərhələsində uduzan ingilislər 1984-cü ildən sonra ilk dəfə Avropa çempionatında iştirak edə bilmədilər. Rusiya saytları yazır ki, İngiltərə millisi bugünkü oyunu həmin məğlubiyyətin əvəzinə çıxmaq üçün fürsət bilirlər. Rusiya, məncə, bu çempionatda sıradan bir komanda kimi yadda qalacaq. Bəlkə elə qrupda da... Qeyd edək ki, Marseldə keçiriləcək qarşılaşmanın hakimi təcrübəli italiyalı Nikola Riççolidir.

❑ **Nazim SABİROĞLU**

YENİ MÜSAVAT

Son səhifə

N 127 (6448) 11 iyun 2016



## Çox düşünənlərin yaddaşı zəif olur

İngiltərədə aparılan bir araşdırmaya görə, çox düşünən insanların yaddaşı zəif olur. Bu adamlar digərləri ilə müqayisədə daha tez depressiyaya düşürlər. Aparılan təcrübələr zamanı elm adamları insanların hansısa bir mövzuda qərar verərkən nə qədər düşündüyü ilə bağlı beyinin hansı hissəsinin daha çox fəal olduğunu araşdırıblar. Verdikləri qərarlardan əmin olan və üzərində təkrar-təkrar düşünməyən adamların beyinlərinin düşüncə ilə bağlı hissəsi sayılan ön hissədə daha çox hüceyrələr var. Qərarları və həyat haqda dəqiq düşünə bilməyən insanların beyinlərinin ön hissələrində hüceyrələrin sayı isə digərləri ilə müqayisədə xeyli azdır.




## Amerikada çimərlik çətiri qadını öldürüb

ABŞ-ın Virciniya ştatının Virciniya Beç kəndində güclü külək çimərlik çətirini 55 yaşlı qadının sinəsinə sancıb. ANS PRESS-in məlumatına görə, ağlagəlməz hadisə nəticəsində Lotti Maykl Belk adlı qadın dünyasını dəyişib. Hadisə yerinə gələn polis ilkin tibbi yardımdan sonra qadını yaxınlıqdakı xəstəxanaya çatdırsa da onun həyatını xilas etmək mümkün olmayıb. Şahidlərin sözlərinə görə çimərlik çətiri bir müddət güclü küləyin təsiri ilə havaya qalxdıqdan sonra qadının sinəsinə sancılıb. Hadisəni araşdıran polis heç bir cinayət izi aşkar etməyib.

# Az yatmaq insanı kökəldir

Kilo problemi genetik amillərlə yanaşı, çox yeməyə və az hərəkət etməyə bağlı olsa da, az yatmağın da köklük yaradan gizli bir düşmən olduğu müəyyən olunub. Son 40 ildə aparılan araşdırmalar indiki vaxtda yuxu müddətinin doqquz saatdan yeddi saata düşdüyünü və insanların daha az yatıb daha çox kilo aldıqlarını göstərir. Mütəxəssislər az yatmanın insan sağlamlığı üzərində bir çox mənfi təsiri olduğunu və kilo probleminin də bu mənfiliklərdən biri olduğunu ifadə edir.



Televiziya və kompüter qarşısında keçirilən zamanın gec saatlara qədər davam etməsi gecə nələrsə yeməyinizə səbəb olur. Gecə gec alınan qidaları bədən tərəfindən enerji olaraq xərclənə bilmədiyindən yığılaraq kiloya çevrilir. Yuxusuzluğun əsəblər üzərində də mənfi təsirləri var, yuxusuzluq sinirləri xəbərdar edərək rahatlamasını maneə törətdiyini, karbohidrat və şəkərli yeməklərə meylin daha çox artdığını və kortizol deyilən stress hormonunun da yuxusuzluq müddətində artaraq yağlanılmağa səbəb olduğunu bilirik.

# Bu kənddə kişilər su daşımaq üçün arvad alırlar

**Hindistanın Mumbay şəhərindən 140 kilometr aralıda yerləşən Denqanmal kəndi quraqlıq bölgədədir. Sakinlərin ən böyük problemi, ən ağır müşkülü içməli sudur.**

Qayalıq təpənin yamacının yaxınlığındakı kəndin camaatı suyu uzaqdan daşıyır. Su daşımaq da təbii, yerli adətlərə uyğun olaraq, qadınların və qızların işidir. Denqanmal kəndinin xanımları suyu kənddən 48 kilometr uzaqdakı, qayanın dibində yerləşən iki quyudan gətirirlər. Su gətirmək saatlarla davam edən işdir.

Bu səbəbdən də kənddəki kişilər ailənin "su təminatını yaxşılaşdırmaq" üçün bir yox, iki və ya üç arvad alırlar. Denqanmal kəndinin yerləşdiyi Maharaştra ştatında son onilliklərin ən quraqlıq dövrü yaşanır.

Ümumiyyətlə isə böyüklüyünə görə Hindistanın ikinci ştatı olan Maharaştrada 19 mindən artıq kənddə içməli su problemi var.

100 evdən ibarət Denqanmal kəndində kişilərin tam əksəriyyəti qonşu kəndlərdə fəhlə və ya muzdur işləyirlər.

Poliqamiya, yəni çoxarvadlılıq Hindistanda qanunsuz əməl sayılsa da, məmurlar Denqanmal təki kəndlərdəki olaylara göz yumurlar.





## Tramp tərəfdarları üçün tanışlıq saytı açıldı

Amerikada Respublikaçılar Partiyasının üzvləri prezidentliyə namizəd Donald Tramp pərəstişkarkları üçün tanışlıq saytı açıblar. TrumpSingles.com ttps://trumpsingles.com/ saytında artıq 500-dən çox adam qeydiyyatdan keçib. Bu ideyanın müəllifi isə partiyanın 35 yaşlı üzvü Ddevid Qossa aiddir. Hazırda televiziya kanallarından birində prodüser kimi çalışan Qoss deyib ki, siyasi görüşlərinə görə ayrılan amerikanların sayını minimuma endirmək üçün belə bir təşəbbüs edib. Saytın izləyicilərinin böyük əksəriyyəti yaxın şəhərlərdə yaşayır. Devid hesab edir ki, oxşar siyasi görüşləri olan tənha, subay insanlar bu sayt vasitəsilə xoşbəxt ola biləcəklər. Saytda qeydiyyat və gündə bir mesaj göndərmək pulsuzdur. Amma aktiv ünsiyyət Tramp fanatlarına ayda 4.95 dollara başa gələcək.




**QOÇ** - Ciddi işlərin həllinə həvəs göstərməyin. Əks təqdirdə sizə mane olanlar tapılacaq. Yaxşı olar ki, əsas diqqətinizi istirahətə yönəldəsiniz. Ürəyiniz istəsə, qonaq getmək də olar.

**BUĞA** - Ümumi çalarlarına görə, uğurlu gün hesab etmək olar. Qarşılıqlı münasibətlərdən tutmuş əməli fəaliyyətə qədər hər şey zövqünüzə uyğun olacaq. Uzaq səfərə çıxmağa, qonaq getməyə dəyər.

**ƏKİZLƏR** - Bürcünüzün ən aktiv dövrü olduğundan göstərilən müddətdə uğurlu anlarınız çox olacaq. Odur ki, gün ərzində cəfəşanlığınızı daha da artırmalısınız. Axşama yaxın sürprizlər mümkündür.

**XƏRÇƏNG** - Fəaliyyət zəminində uğurlarınız mümkündür. Bunun üçün ilk növbədə işgüzar sövdələşmələrinizin sayını artırmalısınız. Amma səhhətinizi də qorumalı, mübahisədən qaçmalısınız.

**ŞİR** - İxtiyarınızda olan bu təqvimdə üzərinizə düşən başlıca vəzifə ədalətli qərarlar çıxarmaqdır. Baş verən situasiyaları düzgün qiymətləndirin. Yeni qərarlar səmərə verə bilər.

**QIZ** - Daxili sıxıntılarınızın xeyli azalacağı gözlənilir. İstənilən prosesdə ədalət prinsiplərindən bəhrələnin. İmkan verməyin ki, sizi aldatsınlar. Sevgidə qətiyyət göstərin.

**TƏRƏZİ** - Risk etməyə məhkumsunuz. Çünki mövcud ideyalarınızı kerçəkləşdirməkdən ötrü başqa yolunuz qalmayıb. İndi güzəştə getmək yalnız zərərinizə işləyə bilər. Axşam qonaq getmək maraqlı olacaq.

**ƏQRƏB** - Yeniliklər yolunuzu gözləyir. Rastlaşdığınız insanların əksəriyyəti qayğılarınızı sizə unutduracaq. Zamanı geri qaytarıb səhvinizi düzəltməkdənsə, real hədəflərə doğru irəliləyin.

**OXATAN** - Bəzi qanqaraçılıqlar gözlənilsə də, səbr nümayiş etdirməlisiniz. Əmin olmadığınız proseslər barədə qəti fikir söyləməyin. Bir sözlə, riskə getmək, mübahisə etmək, səfərə çıxmaq olmaz.

**OĞLAQ** - Daxili sıxıntılarınızın artacağı mümkündür. Bu isə ətrafınızda olan insanların etibarsızlığından doğacaq. Bir tərəfdən səhhətinizdə, digər tərəfdənsə münasibətlərinizdə problemlər mümkündür.

**SUTÖKƏN** - Kənardan kömək olmasa, hər hansı nailiyyətə yetişə bilməyəcəksiniz. Ümumiyyətlə, təkbaşına heç bir iş görməməlisiniz. Bu gün yeganə uğurunuz ailə-sevgi münasibətlərində mümkündür.

**BALIQLAR** - Gərgin situasiyalarla rastlaşma ehtimalınız var. Ələlxüsus da kənar təsirlər əsəblərinizi qabarda bilər. Təmkinli olun. Səfərə çıxmaq istəyirsinizsə, bu planı saat 12-yə qədər reallaşdırın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 99 yaşlı kişi 96 yaşlı arvadını 60 il sonra boşadı



60 illik evlilik həyatından sonra boşanma qərarı alan cütlüyün hekayəsi də olduqca maraqlıdır. Amerikada baş vermiş bu hadisə dünyanın ən qəribə boşanma hekayəsi kimi tarixə düşüb.

Belə ki, 99 yaşlı kişi 96 yaşlı həyat yoldaşına keçmiş sevgilisi tərəfindən 1940-cı ildə yazılmış məktubu indi tapıb. Məktubu oxuyub bitirdikdən sonra boşanmaq üçün məhkəməyə müraciət edib. Onlar ən gec boşanan cütlük kimi tarixə düşüb.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 4.750

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.